© Avropa Şurası, 2024. Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.

© Council of Europe, 2024. This translation has been produced as part of the project "Preventing and combating violence against women and domestic violence in Azerbaijan" co-funded by the European Union and the Council of Europe. The views expressed herein can in no way be taken to reflect the official opinion of the European Union.

*Mətbuat Bölməsi*

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

Məlumat Bülleteni – Gender bərabərliyi

Noyabr 2023-cü il
Bu Məlumat Bülleteni Məhkəmə üçün heç bir məsuliyyət müəyyənləşdirmir və buradakı məlumatlar tam deyil.

# Gender bərabərliyi

"... Gender bərabərliyinin inkişaf etdirilməsi bu gün Avropa Şurasına üzv dövlətlərdə başlıca hədəfdir və bu cür fərqli rəftarın Konvensiyaya uyğun hesab edilməsi üçün çox ciddi səbəblər göstərilməli idi. ... Konkret olaraq, müəyyən ölkədəki ənənələrə, ümumi fərziyyələrə və ya hökm sürən sosial münasibətlərə istinadlar cins əlamətinə əsaslanan fərqli rəftara haqq qazandırmaq üçün yetərli əsas deyil" (*Konstantin Markin Rusiyaya qarşı*, Böyük Palatanın 22 mart 2012-ci il tarixli qərarı, § 127).

**4 noyabr 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 14-cü maddəsi (ayrı-seçkiliyin qadağan olunması):**

"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır".

**Konvensiyanın 4 noyabr 2000-ci il tarixli 12 saylı Protokolunun 1-ci maddəsi (ayrı-seçkiliyə ümumi qadağa):**

"1. Qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

2. Heç kim 1-ci bənddə sadalanan hər hansı əsasa görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmamalıdır".

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Yaşamaq hüququ və işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan cəzanın və ya rəftarın qadağan olunması

## Məişət zorakılığı

**Opuz Türkiyəyə qarşı**

9 iyun 2009-cu il

Ərizəçi şikayət etmişdir ki, Türkiyənin səlahiyyətli orqanları ərizəçinin əri tərəfindən öldürülmüş anasının yaşamaq hüququnu qorumamış və anasının ərizəçinin əri tərəfindən dəfələrlə zorakılığa, ölüm təhdidlərinə və xəsarətlərə məruz qalmasına səhlənkar yanaşmışlar. Bundan əlavə, o bildirmişdir ki, Türkiyənin daxili qanunvericiliyi qadınların məişət zorakılığından müdafiəsini təmin etmir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qərara almışdır ki, ərizəçinin anasının öldürülməsi ilə əlaqədar olaraq İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının **2-ci maddəsi** (yaşamaq hüququ) və dövlətin ərizəçini qorumaması ilə əlaqədar olaraq **3-cü maddəsi** (işgəncələrin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə, həmçinin məişət zorakılığına aid işdə ilk dəfə olaraq qərara almışdır ki, Konvensiyasının **2-ci və 3-cü maddələri ilə əlaqəli şəkildə götürülməklə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Belə ki, Məhkəmənin şərhinə görə, zorakılıq halları əsasən qadınları əhatə edir, Türkiyədə məhkəmə orqanlarının ayrı-seçkilik xarakteri daşıyan ümumi passivliyi isə bunun üçün əlverişli mühit yaradır. Bu səbəbdən, ərizəçinin və anasının məruz qaldığı zorakılıq qadınlara qarşı gender əsaslı və ayrı-seçkilik xarakterli zorakılıq kimi qəbul edilə bilər. Bundan əlavə, son illərdə Türkiyə Hökuməti tərəfindən həyata keçirilən islahatlara baxmayaraq, məhkəmə sisteminin belə hallara ümumiyyətlə reaksiya verməməsi və ərizəçinin işində olduğu kimi təcavüzkarların cəzasız qalması lazımi tədbirlərin görülməsi üçün dövlət orqanlarının üzərinə yetərincə öhdəlik qoyulmadığını göstərir.

**A. Xorvatiyaya qarşı (Ərizə № 55164/08)**

14 oktyabr 2010-cu il

Bu iş ərizəçinin ruhi xəstə olan keçmiş ərinin mütəmadi baş vermiş fiziki hücumları, təhqirləri və ölüm təhdidləri barədə səlahiyyətli orqanlara müraciət etməsinə baxmayaraq, həmin orqanların onu məişət zorakılığından qoruya bilməməsi ilə əlaqədardır. Ərizəçi, həmçinin bildirmişdir ki, Xorvatiyada məişət zorakılığına dair müvafiq qanunvericilik ayrı-seçkilik xarakteri daşıyır.

Məhkəmə ərizəçinin Konvensiyanın **14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **üzrə şikayətini qəbuledilməz** elan etmiş və konkret olaraq belə əsas gətirmişdir ki, Xorvatiyada məişət zorakılığına qarşı qəbul edilmiş tədbirlərin və ya praktikanın və yaxud onların nəticələrinin ayrı-seçkilik xarakteri daşıdığına dair kifayət qədər sübut (məsələn, hesabatlar və ya statistik məlumatlar) təqdim edilməmişdir. Bundan əlavə, Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulduğu** qərara alınmışdır, çünki Xorvatiyanın səlahiyyətli orqanları ərizəçini qorumaq və ya onun keçmiş ərinin zorakı davranışının kökündə duran psixi problemləri həll etmək üçün məhkəmə əmrlərində müəyyən edilmiş bir çox tədbirləri həyata keçirməmişdilər.

**Eremia və digərləri Moldova Respublikasına qarşı**

28 may 2013-cü il

Birinci ərizəçi və iki qızı Moldovanın səlahiyyətli orqanları tərəfindən polis əməkdaşı olan ərinin və uşaqların atasının zorakı və təhqiramiz davranışlarından onların müdafiəsini təmin edə bilməməsi barədə şikayət etmişdir.

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Məhkəmə birinci ərizəçiyə münasibətdə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğunu** müəyyən etmişdir, çünki əlaqədar dövlət orqanları vəziyyətdən xəbərdar olduqları halda, ərizəçini ərinin gələcək zorakı hərəkətlərindən qorumaq üçün səmərəli tədbirləri görməmişlər. Bundan əlavə, ataları tərəfindən analarına qarşı birgə yaşadıqları evlərində zorakı davranışın bilavasitə şahidi olmalarının mənfi psixoloji təsirlərini nəzərə alaraq belə davranışın təkrarlanmasının qarşısını almaq üçün heç bir qabaqlayıcı tədbir görülmədiyi və yaxud görülən tədbirlərin qeyri-qənaətbəxş hesab edilməsi səbəbilə, onların qızları ilə bağlı Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulması** qərara alınmışdır. Məhkəmə, həmçinin müəyyən etmişdir ki, səlahiyyətli orqanlar tərəfindən ərizəçinin məişət zorakılığından qorunması üçün səmərəli tədbirlərin görülməməsi və ya belə tədbirlərin görülməsinin gecikdirilməsindən əlavə, sözügedən zorakı əmələ lazımi qiymət verilməmiş və birinci ərizəçiyə qarşı bir qadın kimi ayrı-seçkilik nümayiş etdirilmişdir. Ona görə də birinci ərizəçiyə münasibətdə Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) də **pozulmuşdur**. Bu baxımdan, Məhkəmənin şərhinə görə, BMT-nin qadınlara qarşı zorakılıq məsələləri üzrə Xüsusi Məruzəçisinin Hesabatında qadınlara qarşı məişət zorakılığı halları, onların səbəb və nəticələri ilə bağlı gəldiyi qənaətlər Moldova Respublikasının dövlət orqanlarının məişət zorakılığı probleminin ciddiliyini və miqyasını, o cümlədən qadınlara qarşı ayrı-seçkiliyin təsirlərini ciddi qəbul etmədikləri barədə təəssüratın formalaşmasına xidmət etmişdir.

*Həmçinin bax:* **B. Moldova Respublikasına qarşı Ərizə № 61382/09)** və **Mudric Moldova Respublikasına qarşı**, 16 iyul 2013-cü il tarixli qərarlar; **N.A. Moldova Respublikasına qarşı (Ərizə № 13424/06)**, 24 sentyabr 2013-cü il tarixli qərar; **T.M. and C.M. Moldova Respublikasına qarşı**, 28 yanvar 2014-cü il tarixli qərar.

### Rumor İtaliyaya qarşı

27 may 2014-cü il

Ərizəçi şikayət etmişdir ki, 2008-ci ilin noyabrında məişət zorakılığı ilə müşayiət olunan ağır insidentdən sonra bir daha zorakılığa məruz qalmasının qarşısının alınması məqsədilə ona səlahiyyətli orqanlar tərəfindən heç bir yardım göstərilməmişdir. O, həmçinin müəyyən edilmiş bu çatışmazlıqların İtaliyada məişət zorakılığına qarşı mübarizə sahəsində qanunvericilik bazasının qeyri-adekvat olduğunu və bu vəziyyətin bir qadın kimi ona qarşı ayrı-seçkiliyə səbəb olduğunu iddia etmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **3-cü maddəsi** (işgəncələrin qadağan olunması) **ayrılıqda və 14-cü maddə** (ayrı-seçkiliyin qadağan olunması) **ilə birlikdə pozulmamışdır**. Belə ki, İtaliya dövlət orqanları məişət zorakılığında ittiham olunan şəxslərə qarşı müvafiq tədbirlər görməyə imkan verən qanunvericilik bazasını formalaşdırmış və bu hüquqi bazadan ərizəçinin qurbanı olduğu cinayəti törətməkdə təqsirləndirilən şəxsin cəzalandırılmasında, habelə zorakılıqların və onun fiziki toxunulmazlığına qarşı hücumların təkrarlanmasının qarşısının alınmasında səmərəli hüquqi mexanizm kimi istifadə olunmuşdur.

### M.G. Türkiyəyə qarşı (Ərizə № 646/10)

22 mart 2016-cı il

Bu iş ərizəçinin evlilik dövründə yaşadığı məişət zorakılığı, boşanma və sonrakı məhkəmə proseslərinin davam etdiyi dövrlərdə isə ona qarşı əri tərəfindən edilən təhdidlərlə əlaqədardır. Ərizəçi onun məruz qaldığı zorakılığın qarşısını ala bilməyən yerli orqanları tənqid edərək, Türkiyədə mütəmadi və sistemi şəkildə qadınlara qarşı baş verən zorakılıq halları ilə bağlı ayrı-seçkilikdən şikayət etmişdir.

Məhkəmə qərara almışdır ki, Türkiyənin səlahiyyətli orqanlarının apardığı cinayət mühakimə icraatı Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) tələblərinə uyğun gəlmədiyi üçün bu maddə **pozulmuşdur.**

Məhkəmə, həmçinin Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** müəyyən etmiş və boşanma elan edildikdən sonra (24 sentyabr 2007-ci il tarixində) və 20 mart 2012-ci il tarixində yeni qanunun (6284 saylı) qüvvəyə minmə dövrünədək qüvvədə olan qanunvericiliyin ərizəçinin (boşanma üçün ərizə ilə müraciət etmiş şəxsin) müdafiə tədbirlərindən istifadə etməsini təmin etmədiyi və uzun illər ərzində yerli məhkəmələrə müraciət etməsinə baxmayaraq, keçmiş ərinin kobud və zorakı davranışı ilə qorxu və təhdid altında yaşamağa məcbur olduğu qənaətinə gəlmişdir.

**Halime Kılıç Türkiyəyə qarşı**

28 iyun 2016-cı il

Bu iş ərizəçinin dörd şikayət ərizəsi ilə müraciətinə əsasən üç mühafizə orderinin və bir qadağan əmrinin verilməsinə baxmayaraq, əri tərəfindən qətlə yetirilmiş ərizəçinin qızının ölümü ilə əlaqədardır.

Məhkəmə Konvensiyanın **2-ci maddəsinin** (yaşamaq hüququ) və **bu maddə ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** müəyyən etmişdir. Xüsusilə, yerli məhkəmə icraatının ərizəçinin qızının qorunmasının təmin edilməsi ilə bağlı Konvensiyanın 2-ci maddəsinin tələblərinə cavab vermədiyi müəyyən edilmişdir. Ərizəçinin ərinə qarşı verilən qərarların icrasını təmin etməməklə, milli dövlət orqanları çıxarılmış qərarların səmərəsizliyinə zəmin yaratmış, beləliklə də cəzasızlıq mühiti yaradaraq, əri heç bir məsuliyyətə cəlb etməməklə ərizəçiyə qarşı təkrarən zorakılığın yol verilməsinə şərait yaratmışdır. Ərinin zorakı davranışına məruz qaldıqda ərizəçinin qızının köməksiz qalması Məhkəmə tərəfindən qəbuledilməz hal kimi müəyyən edilmiş, həmçinin zərər çəkmiş şəxsə qarşı təkrarən baş verən zorakılıq əməlləri və ölüm hədələrinə göz yummaqla dövlət orqanları məişət zorakılığının baş verməsi üçün əlverişli zəmin yaratmışlar.

**Talpis İtaliyaya qarşı**

2 mart 2017-ci il

Bu şikayət ərizəçinin əri tərəfindən fiziki zorakılığa məruz qalması, oğlunun qətlə yetirilməsi və özünün ölümünə cəhdlə nəticələnən məişət zorakılığı işi ilə bağlıdır.

Məhkəmə qərara almışdır ki, ərizəçinin oğlunun öldürülməsi və onun özünün ölümünə cəhd edilməsi səbəbilə **Konvensiyanın 2-ci maddəsinin** (yaşamaq hüququ) **pozulması** hesab edilir. Məhkəmə, həmçinin müəyyən etmişdir ki, səlahiyyətli orqanlar tərəfindən ərizəçinin məişət zorakılığı aktlarından qorunmasını təmin etməklə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməməsi nəticəsində **Konvensiyanın 3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulması** halı baş vermişdir. Məhkəmə yekun olaraq **Konvensiyanın 2-ci və 3-cü maddələri ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara almış və müəyyən etmişdir ki, ərizəçinin məruz qaldığı zorakılıq cins əlamətinə əsaslanıb və müvafiq olaraq qadınlara qarşı ayrı-seçkiliyin bir formasını təşkil edir. Bununla bağlı, Məhkəmə konkret olaraq qeyd etmişdir ki, ərizəçi sözügedən zorakılığı az əhəmiyyətli hesab edən və sonda onu təsdiq edən dövlət orqanlarının hərəkətsizliyi nəticəsində bir qadın kimi ayrı-seçkilik qurbanına çevrilmişdir.

**Bălşan Rumıniyaya qarşı**

23 may 2017-ci il

Ərizəçi verdiyi çoxsaylı şikayətlərə baxmayaraq, səlahiyyətli orqanların onu əri tərəfindən mütəmadi fiziki zorakılığa məruz qalmaqdan qoruya bilmədiyini, habelə ərinin məsuliyyətə cəlb olunmadığını şikayət etmişdir. O, həmçinin səlahiyyətli orqanların ona qarşı törədilən bu cür zorakılıq əməllərinə dözümlü münasibət nümayiş etdirməsi nəticəsində özünü daha da təhqir olunmuş və müdafiəsiz hiss etdiyini bildirmişdir.

Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin əri tərəfindən zorakılığa məruz qalması faktı ilə bağlı səlahiyyətli orqanların lazımi müdafiə tədbirləri görməməsi səbəbindən Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulması** baş vermişdir.

Eyni zamanda, zorakılığın gender əsaslı olması nəticəsində Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **də pozulmuşdur**. Məhkəmə ərizəçinin əri tərəfindən döyüldüyünü və zorakılığa məruz qaldığını, habelə zərər çəkmiş şəxsin həm polisə, həm də məhkəmə orqanlarına yardım üçün dəfələrlə etdiyi müraciətləri nəzərə alaraq, aidiyyətı dövlət orqanlarının bu hadisədən xəbərdar olmalı olduğunu xüsusilə qeyd etmişdir. Bundan başqa, Rumıniyada məişət zorakılığından şikayət etmək və zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri müdafiə tədbirlərinin görülməsi ilə bağlı səlahiyyətli orqanlara müraciət etmək (şikayətçi bu hüquqi müdafiə vasitələrindən tam istifadə etmişdir) üçün mövcud qanunvericilik bazasının olmasına baxmayaraq, səlahiyyətli orqanlar onun işi ilə bağlı qanunvericiliyin müvafiq müddəalarını tətbiq etməmişlər. Bu orqanlar hətta ərizəçinin ona qarşı törədilən əməllərə özünün səbəb olduğunu və törədilən əməllərin cinayət qanunvericiliyinin təsir dairəsində az əhəmiyyətli hüquq pozuntusu olduğu qənaətində olmuşlar. Belə bir yanaşma milli-hüquqi tənzimetməni onun ali məqsədlərindən uzaqlaşdırmış və qadınlara qarşı zorakılığa dair müvafiq beynəlxalq standartlara zidd olmuşdur. Həqiqətən də səlahiyyətli orqanların işdə nümayiş etdirdiyi passivliyi ərizəçiyə bir qadın kimi ayrı-seçkilik münasibətini əks etdirmiş və ümumilikdə Rumıniyada məişət zorakılığının qarşısının alınması ilə bağlı hökumətin cəmiyyət qarşısında öhdəliyinin mövcud olmadığını göstərmişdir.

## Volodina Rusiyaya qarşı

9 iyul 2019-cu il

Bu iş ərizəçinin Rusiyanın dövlət orqanlarının onu mütəmadi baş vermiş məişət zorakılığından, o cümlədən hücumlardan, adam oğurluğundan, təqib və təhdidlərdən qorumaması ilə bağlı şikayəti ilə əlaqədar idi. O, həmçinin bildirmişdir ki, Rusiyadakı mövcud hüquqi rejim qadınlara qarşı bu cür zorakılıq və ayrı-seçkilik hallarına qarşı adekvat mübarizəni təmin etmir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **3-cü maddəsi** (işgəncələrin qadağan olunması) **pozulmuşdur,** çünki ərizəçi keçmiş tərəf müqabili tərəfindən həm fiziki, həm də mənəvi cəhətdən pis rəftara məruz qalmışdır və Rusiyanın səlahiyyətli orqanları Konvensiya üzrə onu pis rəftardan müdafiə etmək öhdəliklərinə əməl etməmişlər. Məhkəmə, həmçinin belə bir qənaətə gəlmişdir ki, Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) də **pozulmuşdur**. Bu baxımdan, Məhkəmə konkret olaraq qeyd etmişdir ki, məişət zorakılığı Rusiya qanunvericiliyində tanınmır və bununla bağlı heç bir mühafizə orderləri və qadağan əmrləri verilməmişdir. Bu çatışmazlıq açıq-aydın göstərir ki, Rusiyanın dövlət orqanları Rusiyada məişət zorakılığı probleminin ciddiliyini və qadınlara qarşı ayrı-seçkiliyə səbəb olmasını qəbul etmək istəmirlər.

## Tkhelidze Gürcüstana qarşı

8 iyul 2021-ci il

Bu iş Gürcüstanın səlahiyyətli orqanlarının ərizəçinin qızını məişət zorakılığından müdafiə etməməsi və bu məsələ ilə bağlı səmərəli araşdırma aparılmaması ilə əlaqədar idi. Ərizəçi bildirmişdir ki, polis onun qızının həyatı üçün təhlükədən xəbərdar olsa da, lazımi qabaqlayıcı tədbirlər görməmişdir. Konkret olaraq, onun və qızının etdiyi çoxsaylı şikayətlərə onların reaksiyası qeyri-münasib olmuş və ayrı-seçkilik xarakteri daşımışdır.

Məhkəmə Konvensiyanın **2-ci maddəsi** (yaşamaq hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Gürcüstan dövləti ərizəçinin qızının həyatını qorumaq və onun ölümü ilə bağlı səmərəli araşdırma aparmaq öhdəliklərinə əməl etməmişdir. Məhkəmə konkret olaraq polisin ərizəçinin qızının təhlükədə olduğunu bilməli olmasını qeyd etmişdir. Baxmayaraq ki, polis orqanları müxtəlif qoruyucu tədbirlər görə bilərdilər, onun ölümü ilə nəticələnən gender əsaslı zorakılığın qarşısını ala bilməmişlər. Məhkəmə müəyyən etmişdir ki, polisin hərəkətsizliyi sistem uğursuzluğu hesab edilə bilər.

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

Polisin hərəkətsizliyinin arxasında gender əsaslı ayrı-seçkiliyin və qərəzliliyin olması ehtimalı ilə bağlı səmərəli araşdırma aparılmasına ciddi ehtiyac var idi.

**Tunikova və başqaları Rusiyaya qarşı**[1]

14 dekabr 2021-ci il

Bu iş dörd ərizəçinin keçmiş cinsi tərəf-müqabilləri və ya ərləri tərəfindən məişət zorakılığı aktlarına, o cümlədən ölümlə təhdid edilməyə, bədən xəsarətlərinə və bir ciddi xəsarətə məruz qalması ilə əlaqədar idi. Ərizəçilər konkret olaraq Rusiya dövlətinin onları məişət zorakılıqdan müdafiə etməməsindən, bununla bağlı hüquqi müdafiə vasitələrinin olmamasından və gender zorakılığına qarşı mübarizədə ümumi uğursuzluğun qadınlara qarşı ayrı-seçkilik təşkil etməsindən şikayət etmişlər.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Rusiyanın səlahiyyətli orqanları məişət zorakılığı ilə səmərəli mübarizə aparmaq üçün hüquqi baza yaratmamış, təkrarlanan zorakılıq risklərini qiymətləndirməmiş və ərizəçilərin məruz qaldıqları məişət zorakılığı ilə bağlı səmərəli araşdırma aparmamışlar. Məhkəmə, həmçinin Konvensiyanın **3-cü maddəsi ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Rusiyada məişət zorakılığı riskindən müdafiə məsələsində qadınlar de-fakto ayrı-seçkiliyə məruz qalırlar. Bununla bağlı Məhkəmə xüsusilə qeyd etmişdir ki, Rusiyada qadınlara qarşı məişət zorakılığının sarsıdıcı miqyasını aradan qaldırmaq üçün dövlətin qanun qəbul etməməsi, cinayət təqibində və cəza təyinində mövcud olan sistematik problemlər məişət zorakılığına şərait yaradan davamlı mühitin formalaşmasına səbəb olmuşdur. Struktur xarakterli qərəzliliyin mövcudluğu təsdiqləndiyinə görə, ərizəçilərin onlara qarşı hər hansı fərdi qərəzliliyi sübut etmələrinə ehtiyac yox idi. Nəhayət, Konvensiyanın **46-cı maddəsinə** (qərarların məcburi qüvvəsi və icrası) uyğun olaraq, Məhkəmə oxşar pozuntuların baş verməsinin qarşısını almaq üçün daxili qanunvericilikdə və təcrübədə təcili dəyişikliklər edilməsini tövsiyə etmişdir.

**A və B Gürcüstana qarşı (Ərizə № 73975/16)**

10 fevral 2022-ci il

Bu iş iki ərizəçinin, müvafiq olaraq, qızının və anasının ikinci ərizəçinin polis əməkdaşı olan atası tərəfindən münaqişəli münasibətlərdən sonra qətlə yetirilməsi ilə, eləcə də sonradan aparılmış araşdırma ilə əlaqədar idi. Ərizəçilər konkret olaraq şikayət etmişlər ki, səlahiyyətli orqanlar onların yaxın qohumunu məişət zorakılığından müdafiə etməmiş və səmərəli araşdırma aparmamışlar.

Məhkəmə qərara almışdır ki, hazırkı işdə Konvensiyanın **2-ci maddəsi** (yaşamaq hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə müəyyən etmişdir ki, bu iş sadəcə qadın olduqları üçün qurbanlara qarşı törədilən məişət zorakılığı barədə iddialar qarşısında hüquq-mühafizə orqanlarının ümumi və ayrı-seçkilik xarakterli passivliyinin qurbanlara qarşı zorakılığın daha geniş yayılmasına şərait yarada biləcəyinə dair daha bir bariz nümunə kimi qəbul edilə bilər. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, müxtəlif qoruyucu tədbirlərin mövcud olmasına baxmayaraq, səlahiyyətli orqanlar ərizəçilərin yaxın qohumuna qarşı törədilən və onun ölümü ilə nəticələnən gender əsaslı zorakılığın qarşısını almamışlar və onların passivliyi və hətta sonradan qurbanın qətlə yetirilməsinə görə məhkum olunmuş şəxsə münasibətdə mülayim yanaşması vəziyyəti daha mürəkkəbləşdirmişdir.

[1] 16 sentyabr 2022-ci il tarixində Rusiya Federasiyası Konvensiyada iştirakına xitam vermişdir.

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

**A.E. Bolqarıstana qarşı (Ərizə № 53891/20)**

23 may 2023-cü il

Bu iş Bolqarıstanda cinayət təqibi orqanına göndərilmiş şikayətlərlə əlaqədar idi ki, həmin vaxt cəmi 15 yaşında olan ərizəçi birlikdə yaşadığı 23 yaşlı kişi tərəfindən döyülməklə, təpiklənməklə və boğulmaqla məişət zorakılığının qurbanı olmuşdu. Ərizəçi konkret olaraq

şikayət etmişdir ki, dövlət onu məişət zorakılığından qorumayıb və bununla bağlı şikayətlərini adekvat şəkildə araşdırmayıb və o, yaş və cins əlamətinə görə ayrı-seçkiliyə məruz qalıb.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Bolqarıstanda məişət zorakılığının bütün formalarının cəzalandırılması və qurbanların müdafiəsinin yetərincə təmin edilməsi üçün səmərəli sistem yaradılmamışdır. Məhkəmə xüsusilə qeyd etmişdir ki, hazırkı işdə dövlət ərizəçini nə hüquqi (məişət zorakılığı ilə bağlı qanunvericilikdə çatışmazlıqlar olub), nə də faktiki cəhətdən adekvat şəkildə müdafiə etməmişdir, yəni ərizəçinin həssas durumda olmasına və dəfələrlə məişət zorakılığına məruz qaldığını bildirməsinə baxmayaraq, cinayət təqibi orqanları cinayət işini başlamamışlar. Məhkəmə daha sonra qeyd etmişdir ki, Bolqarıstan hökuməti səlahiyyətli orqanların institusional hərəkətsizliyini təkzib edə bilməmişdir. Ərizəçinin şəxsən səlahiyyətli orqanların qərəzliliyinin qurbanı olduğunu sübut etməsinə ehtiyac olmadığı üçün Məhkəmə belə qənaətə gəlmişdir ki, onun işində Konvensiyanın **3-cü maddəsi ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) də **pozuntusu baş vermişdir**.

## Köləliyin və məcburi əməyin qadağan olunması

### Andlı iclasçı funksiyasını yerinə yetirmək üçün müraciət etmiş qadınların azlıq təşkil etməsi səbəbindən kişilərin ayrı-seçkiliyə məruz qalması

**Zarb Adami Maltaya qarşı**

20 iyun 2006-cı il

1971-ci ildən ərizəçi Maltada andlı iclasçılar siyahısına salınmış və ən azı 2002-ci ilə qədər siyahıda qalmışdır. O, 1971-1997-ci illərdə üç müxtəlif cinayət işi üzrə həm andlı iclasçı, həm də andlı iclasçıların sədri funksiyasını icra etmişdir. 1997-ci ildə yenidən andlı iclasçı funksiyasının icrası üçün çağırılmış, amma məhkəməyə gəlmədiyi üçün təxminən 240 avro məbləğində cərimələnmişdir. Cəriməni ödəmədiyi səbəbindən Cinayət Məhkəməsinə çağırılmışdır. Ərizəçi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qurbanı olması ilə bağlı şikayət etmiş və bildirmişdir ki, Maltada andlı iclasçı funksiyasını yerinə yetirməyə çağırılan qadınların faiz nisbəti çox azdır və o, ayrı-seçkilik xarakteri daşıyan mülki-hüquqi öhdəliyin tətbiq edilməsi ilə əlaqədar olaraq cinayət təqibinə məruz qamışdır.

Məhkəmə Konvensiyanın **4-cü maddəsinin 3(d) bəndi** (köləliyin və məcburi əməyin qadağan olunması) **ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **də pozulduğunu** bildirmişdir. Məhkəmə xüsusi olaraq qeyd etmişdir ki, Malta Hökuməti fərqli rəftarın bir sıra amillərdən asılı olduğunu əsaslandırmışdır: andlılar əhalinin iqtisadiyyatda və peşə fəaliyyətlərində aktiv olan hissəsi arasından seçilirlər; bundan əlavə, andlı iclasçı funksiyasını icra etməkdən o şəxslər azad edilir ki, onlar ailə üzvlərinə qulluq edir və bu baxımdan kişilərə nisbətən daha çox qadınlar müvafiq qanunvericilik normasından yararlana bilirlər; nəhayət, "mədəni oriyentasiya səbəbindən" müdafiəçi vəkillər qadın andlılara daha çox etiraz edə bilərdi. Məhkəmə Hökumət tərəfindən göstərilən amillərin andlı iclasçılar heyətinin tərkibindəki əhəmiyyətli uyğunsuzluğu izah etmək üçün yetərli olmasına şübhə ilə yanaşaraq qeyd etmişdir ki, ikinci və üçüncü amillər yalnız andlı iclasçı

funksiyasını faktiki yerinə yetirmiş qadınlara əlaqədardır və andlılar siyahısına yazılmış qadınların sayının çox az olması səbəbini izah etmir. İstənilən halda, Hökumət tərəfindən vurğulanan amillər əslində barəsində şikayət edilən fərqli rəftara səbəb olmuş mexanizmlərin izahını təşkil edirdi. Bu rəftarı lazımi şəkildə əsaslandırmaq üçün Məhkəməyə heç bir etibarlı dəlil təqdim edilməmiş və sübut edilməmişdir ki, fərqli rəftar qanuni məqsəd daşıyıb və istifadə edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında mütənasiblik əlaqəsi mövcud olub.

### Hərbi xidmətdən azad edilən kişilərə xüsusi verginin tətbiqi

**Məhkəmənin icraatında olan ərizə**

**Kung İsveçrəyə qarşı (Ərizə № 73307/17)**

Ərizə barədə 15 may 2018-ci ildə İsveçrə Hökumətinə məlumat verilmişdir.

2005-ci ildə hərbi xidmətə yararsız elan edilən ərizəçi xüsusi vergi ("hərbi xidmətdən azad etmə vergisi" adlanan) ödəməli olmuş və bu, 2015-ci ildə də qüvvədə qalmışdır. O, qadınlara bu verginin tətbiq edilmədiyinə etiraz edərək, cinsi mənsubiyyətə görə anormal fərqli rəftara məruz qaldığını bildirmişdir.

Məhkəmə ərizə barədə İsveçrə Hökumətinə məlumat vermiş və tərəflərə Konvensiyanın 4-cü (köləliyin və məcburi əməyin qadağan olunması) və 8-ci maddəsi (şəxsi həyata və ailə həyatına hörmət hüququ) ilə əlaqəli şəkildə 14-cü maddəsi üzrə suallar ünvanlamışdır.

### Yanğınsöndürmə briqadasında xidmət etmək və ya bunun əvəzinə maddi vəsait ödəmək öhdəliyinin yalnız kişilərin üzərinə qoyulması

**Karlheinz Schmidt Almaniyaya qarşı**

18 iyul 1994-cü il

Ərizəçi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qurbanı olduğunu şikayət edərək bildirmişdir ki, Baden-Vürttemberq əyalətində yanğınsöndürən vəzifəsində xidmət etmək və ya bu cür xidmət etmək əvəzinə maddi vəsait ödəmək öhdəliyi yalnız kişilərin üzərinə qoyulurdu.

Məhkəmə Konvensiyanın **4-cü maddəsinin 3(d) bəndi** (köləliyin və məcburi əməyin qadağan olunması) ilə birlikdə **14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** bildirmişdir. Məhkəmənin şərhinə görə, Almaniyanın bir çox əyalətləri bu sahədə iki cins üçün fərqli öhdəliklər tətbiq etməmişdir və hətta Baden-Vürttemberqdə qadınlar yanğınsöndürmə briqadasında könüllü xidmətə qəbul edilirlər. Bundan əlavə, yanğınsöndürmə briqadasında məcburi xidmət məsələsində kişilərə və qadınlara fərqli münasibət göstərilməsinin hər hansı əsasının olub-olmamasından asılı olmayaraq, cari işdə həlledici sayılan məsələ bu xidməti yerinə yetirmək öhdəliyinin yalnız qanundan və nəzəriyyədən irəli gəlməsi idi. Əvvəllər olduğu kimi, kifayət qədər könüllülərin olduğunu nəzərə alsaq, heç bir kişi yanğınsöndürmə briqadasında xidmət etmək məcburiyyətində qalmamışdır. Nəhayət, maddi vəsait ödənişi (yalnız qanunda deyil, həm də praktikada) əslində kompensasiya xarakterini itirmiş və faktiki olaraq yeganə vəzifəyə çevrilmişdir. Ona görə də bu maliyyə yükünün tətbiq edilməsində cinsi əsaslı fərqli rəftarın mövcudluğuna haqq qazandırmaq çətin olardı.

## Azadlıq və təhlükəsizlik hüququ

### Ömürlük azadlıqdan məhrum etmə cəzasını tənzimləyən müddəaların ayrı-seçkilik xarakteri daşıması barədə şikayət

**Khamtokhu və Aksenchik Rusiyaya qarşı**

24 yanvar 2017-ci il (Böyük Palata)

Bu işdə ərizəçilər şikayət etmişlər ki, bir sıra ağır cinayətlərə görə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş yetkin yaşlı kişilər olaraq onlar qanuna əsasən ömürlük azadlıqdan məhrum etmə cəzasından azad edilən digər məhkum kateqoriyaları (qadınlar, cinayət törədildiyi anda 18 yaşına çatmamış şəxslər və ya hökm çıxarıldığı anda yaşı 65-dən yuxarı olanlar) ilə müqayisədə ayrı-seçkiliyə məruz qalmışlar.

Böyük Palata qərara almışdır ki, Rusiyada ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin edilməsində həm yaşla, həm də cinslə əlaqədar fərqli rəftar məsələsində Konvensiyanın **5-ci maddəsi** (azadlıq və toxunulmazlıq hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**. Palatanın gəldiyi qənaətə görə, ərizəçilərlə bəzi digər cinayətkar kateqoriyaları arasında fərqli rəftar ədalət və humanizm prinsiplərinin təşviqinə xidmət edərək qanuni xarakterə malik olmuşdur. Böyük Palata, həmçinin təsdiq etmişdir ki, müəyyən cinayətkar kateqoriyalarının ömürlük azadlıqdan məhrum etmə cəzasından azad edilməsi məhz bu prinsiplərə nail olmaq üçün mütənasib vasitədir. Bu nəticəyə gələrkən, Palata Rusiyada bu cəzanın həm praktiki tətbiqini, həm də təyin edilməsi qaydasını və sonradan ona yenidən baxılmasının mümkünlüyünü nəzərə almışdır. Konkret olaraq, ərizəçilərə təyin edilmiş ömürlük azadlıqdan məhrum etmə cəzası qanunsuz və ya əsassız deyildi və 25 ildən sonra onlara yenidən baxılacaqdı. Bundan əlavə, Böyük Palata nəzərə almışdır ki, cinayət siyasəti kimi məsələlərə dair qərar verməkdə iştirakçı dövlətlərə geniş sərbəstlik verilir, yetkinlik yaşına çatmayan cinayətkarların ömürlük azadlıqdan məhrum etmə cəzasından azad edilməsi istisna olmaqla ömürlük azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi məsələsində bütün Avropa ölkələri arasında heç bir konsensus yoxdur. Həqiqətən də cinayətkarların müəyyən qruplarının ömürlük azadlıqdan məhrum etmə cəzasından azad edilməsinə görə Rusiyanın qanunverici orqanını tənqid etmək çətindir, çünki bu cür azadetmə bütün məsələləri nəzərə alaraq, cəza təyinetmə sahəsində sosial tərəqqi təşkil edir.

## Ədalətli məhkəmə araşdırması hüququ

### Atalığın ləğvinə dair iddia

Bax aşağıda: “Şəxsi həyata və ailə həyatına hörmət hüququ”

### Cinsi fərqə əsaslanan məhkəmə qərarını dəstəkləyən əsaslandırma

**Schuler-Zgraggen İsveçrəyə qarşı**

24 iyun 1993-cü il

Əlillik pensiyası üçün müraciət etmiş ərizəçi şikayət etmişdir ki, Federal Sığorta Məhkəməsi onun işi üzrə qərarını “gündəlik həyat təcrübəsinə əsaslanan fərziyyə” ilə əsaslandırmışdır, yəni bir çox evli qadınlar ilk uşağı dünyaya gəldikdə əmək fəaliyyətini dayandırır və yalnız bir qədər sonra onu bərpa edirlər. Buradan belə nəticə çıxırdı ki, hətta səhhətində problem olmadığı təqdirdə ərizəçi əmək fəaliyyətindən imtina edəcəkdi. Ərizəçi bu fərziyyənin cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə bərabər olduğunu bildirmişdir.

Hər hansı ağlabatan və obyektiv əsaslandırma olmadığına görə Məhkəmə Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndi** (ədalətli məhkəmə araşdırması hüququ) **ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara almışdır. Məhkəmənin şərhinə görə, Federal Sığorta Məhkəməsi qadınların uşaq dünyaya gətirdikdə əmək fəaliyyətini tərk etməsi barədə Apellyasiya Şurasının fərziyyəsini bütünlüklə qəbul etmiş, lakin əks arqumentləri nəzərdən keçirərək bu fərziyyənin həqiqətə uyğunluğunu yoxlamamışdır.

Federal Məhkəmənin qərarının mətnində bu fərziyyənin əks olunması (İsveçrə Hökuməti tərəfindən iddia edildiyi kimi) əhəmiyyət kəsb etməyən təsadüfi qeyd kimi qəbul edilə bilməzdi. Əksinə, həmin fərziyyə qərarın əsasını təşkil edən yeganə həlledici amil idi və beləliklə yalnız cinsi mənsubiyyətə əsaslanan fərqli rəftara səbəb olmuşdur.

### Gender ayrı-seçkiliyinin baş verdiyini təsdiqləyən məhkəmə qərarının icra edilməməsi

**García Mateos İspaniyaya qarşı**

19 fevral 2013-cü il

Altı yaşına çatmamış oğlu üzərində qanuni qəyyumluğa sahib olan ana olaraq ərizəçi çalışdığı supermarketdə iş saatının azaldılmasına icazə istəmiş, lakin işəgötürənlər imtina cavabı vermişdir. Ərizəçi şikayət etmişdir ki, İspaniya Konstitusiya Məhkəməsi onun işində aşkar etdiyi gender əsaslı ayrı-seçkiliyi qadağan edən prinsipin pozuntusunu aradan qaldırmamışdır. O, həmçinin ağlabatan müddətdə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu və gender əsaslı ayrı-seçkiliyin qurbanı olduğunu bildirmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **ilə birlikdə 6-cı maddənin 1-ci bəndi** (ağlabatan müddətdə ədalətli məhkəmə araşdırması hüququ) **pozulmuşdur**. İspaniya Konstitusiya Məhkəməsinin ərizəçinin xeyrinə çıxardığı qərarda müəyyən edilmiş cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin yolverilməzliyi prinsipinin pozuntusu heç vaxt aradan qaldırılmamışdır, çünki müvafiq qərar icra edilməmiş və ərizəçiyə kompensasiya verilməmişdir.

## Şəxsi həyata və ailə həyatına hörmət hüququ

### Atalığın ləğvinə dair iddia

**Rasmussen Danimarkaya qarşı**

28 noyabr 1984-cü il

Bu iş belə bir faktla əlaqədar idi ki, ərizəçi arvadından ayrıldıqdan sonra uşağın atası olmasının mübahisələndirilməsinə icazə verilmirdi, belə ki, 1960-cı il tarixli qanun atanın nikahdan doğulmuş uşaq üzərində valideynliyini mübahisələndirmək hüququnu müəyyən bir müddətlə məhdudlaşdırır, amma ananın istənilən vaxt uşağın atasının valideynliyinə etiraz etməsinə icazə verirdi.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **6-cı** (ədalətli məhkəmə araşdırması hüququ) **və 8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır.** Çünki bu məsələdə ər və arvada münasibətdə fərqli rəftar belə bir anlayışa əsaslanırdı ki, ərə nisbətən arvadın öz valideynliyinə etiraz etməsinə müddət qoyulmasına daha az zərurət olur, çünki ananın maraqları adətən uşağın maraqları ilə üst-üstə düşür və boşanma və ya ayrılma zamanı əksər hallarda qəyyumluq hüququ ona verilir. 1960-cı il tarixli qanununun kökündə duran düşüncənin artıq cəmiyyətin inkişafına uyğun olmadığı hesab edilərək, qüvvədə olan normalar 1982-ci ildə Danimarka parlamenti tərəfindən dəyişdirilmişdi. Buradan həmin qanunun iyirmi iki il əvvəlki vəziyyəti qiymətləndirməsinin öz əhəmiyyətini itirdiyi barədə nəticə çıxarmaq olmazdı.

**Mizzi Maltaya qarşı**

12 yanvar 2006-cı il

1966-cı ildə ərizəçinin arvadı hamilə qalmış, növbəti ildə cütlük ayrılmışdır. Malta qanunlarına görə, ərizəçi avtomatik olaraq bu müddətdə doğulmuş uşağın atası hesab edilərək bioloji ata kimi qeyd edilmişdir. Ərizəçinin sözlərinə görə, uşağın atası olmadığını təsdiqləyən DNT testindən sonra uşağın atası olması faktına etiraz etmək üçün mülki məhkəmədə iddia qaldırmaq cəhdi uğursuz olmuşdur. Ərizəçi şikayət etmişdir ki, məhkəməyə müraciət etmək imkanına malik olmamışdır və onun işində tətbiq edilmiş atalıq haqqında təkzibolunmaz fərziyyə onun şəxsi həyata və ailə həyatına hörmət

hüququna qeyri-mütənasib müdaxilə təşkil etmişdir. O, həmçinin bildirmişdir ki, ayrı-seçkiliyə məruz qalıb, çünki həmin işdə atalığın müəyyənləşdirilməsində maraqlı olan digər tərəflərə eyni sərt şərtlər və müddət məhdudiyyətləri tətbiq edilməmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndi** (ədalətli məhkəmə araşdırması hüququ), **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) və **6 və 8-ci maddələri ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Sonuncu məsələyə gəlincə, Məhkəmə ərizəçinin atalıq faktına məhkəmədə etiraz etməsinə müddət məhdudiyyətinin qoyulduğunu, digər "maraqlı tərəflərə" isə həmin məhdudiyyətin tətbiq edilmədiyini qeyd edərək bu qənaətə gəlmişdir ki, müddət məhdudiyyətinin sərt şəkildə tətbiq edilməsi və ərizəçi barəsində Malta Konstitusiya Məhkəməsinin istisnaya yol verməməsi ərizəçini Konvensiyanın 6 və 8-ci maddələri ilə təmin edilən hüquqlarından məhrum etmiş, digər maraqlı tərəflər isə, əksinə həmin hüquqlarından istifadə etmişdilər.

## Pensiya yaşı

### Pająk və başqaları Polşaya qarşı

24 oktyabr 2023-cü il[2]

Bu iş hakimlərin pensiya yaşının qadınlar üçün 67-dən 60-a, kişilər üçün isə 65-ə endirilməsini nəzərdə tutan və pensiya yaşına çatdıqdan sonra hakimin səlahiyyətlərinin davam etdirilməsini Ədliyyə nazirinin və Milli Məhkəmə Şurasının icazəsi ilə şərtləndirən qanunvericilik dəyişikliyindən şikayət edən dörd hakimlə əlaqədar idi.

Məhkəmə bütün ərizəçilərə münasibətdə Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndinin** (ədalətli məhkəmə araşdırması hüququ) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Polşa dövləti onların məhkəməyə müraciət hüququnu mahiyyət etibarilə pozmuşdur. Bununla bağlı Məhkəmə konkret olaraq qeyd etmişdir ki, hakimlər qanunvericilik və icra hakimiyyəti orqanlarının özbaşına qərarlarına qarşı müdafiədən yararlanmaq imkanına malik olmalıdırlar və mübahisələndirilən tədbirin qanuniliyi məsələsinə yalnız müstəqil məhkəmə orqanının nəzarətinin olması bu cür müdafiəni səmərəli edə bilər. Hazırkı işdə Məhkəmə müəyyən etmişdir ki, Ədliyyə naziri və Milli Məhkəmə Şurası tərəfindən hər bir ərizəçi ilə bağlı qəbul edilmiş qərarlar məhkəmələrin müstəqilliyinə və hakimlərin vəzifədən kənarlaşdırılmaqdan müdafiəsinə icra hakimiyyəti orqanı və həmin orqanın tabeliyində olan qurumun nümayəndəsi tərəfindən özbaşına və qanunsuz müdaxilə təşkil etmişdir. Məhkəmə həmçinin qərara almışdır ki, bu maddələr üzrə şikayət vermiş üç ərizəçiyə münasibətdə **Konvensiyanın 8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozuntusu baş vermişdir**. Bununla əlaqədar olaraq Məhkəmə müəyyən etmişdir ki, barəsində şikayət edilən qanunvericilik eyni peşənin nümayəndələri üçün məcburi pensiya yaşı ilə bağlı cins əlamətinə görə açıq-aydın fərqli rəftarı nəzərdə tutur. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, ərizəçilərin əmək fəaliyyəti oxşar şəraitdə kişi hakimlərə nisbətən beş il tez dayandırılmış və onların vaxtından əvvəl məcburi pensiyaya çıxması onların karyeralarına, professional və şəxsi inkişaf perspektivlərinə açıq-aydın mənfi təsir göstərmişdir.

[2] Bu qərar İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 44-cü maddəsinin 2-ci bəndində (qəti qərarlar) nəzərdə tutulan hallarda qüvvəyə minəcək.

## Həkim səhvinə görə təyin edilmiş kompensasiyanın məbləği

**Carvalho Pinto de Sousa Morais Portuqaliyaya qarşı**

25 iyul 2017-ci il

Bu iş həkim səhvi səbəbindən ginekoloji fəsadlardan əziyyət çəkən 50 yaşlı qadın ərizəçiyə təyin edilmiş kompensasiyanın məbləğinin azaldılması barədə Portuqaliya Ali İnzibati Məhkəməsinin qərarı ilə əlaqədar idi. 1995-ci ildə aparılmış cərrahi əməliyyatdan sonra o, şiddətli ağrıdan, sidiyini saxlaya bilməmədən əziyyət çəkir və cinsi münasibətlərdə çətinlik çəkirdi. Ərizəçi konkret olaraq şikayət etmişdir ki, kompensasiyanın məbləğinin azaldılması barədə qərar ayrı-seçkilik xarakteri daşıyıb, çünki qadın olaraq cinsi həyatın onun üçün əhəmiyyəti nəzərə alınmayıb.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmənin gəldiyi qənaətə görə, Portuqaliya məhkəmələrinin yekun qərarında təkcə ərizəçiyə fiziki və mənəvi iztirablarına görə təyin olunmuş kompensasiya məbləğinin deyil, həm də ev qulluqçusu qismində göstərdiyi xidmətlərə görə kompensasiya məbləğinin azaldılmasında ərizəçinin yaşı və cinsiyyəti, yəqin ki, həlledici amillər olmuşdur. Eyni zamanda bu qərar belə bir ehtimala əsaslanmışdır ki, daha gənc qadınlarla müqayisədə iki uşaq anası olan 50 yaşlı qadın üçün cinsi həyat o qədər də vacib deyil. Məhkəmənin şərhinə görə, bu mülahizələr Portuqaliyadakı məhkəmə sistemində hökm sürən qərəzli yanaşmanı göstərir. Məhkəmə bir daha xatırlatmışdır ki, gender bərabərliyi bu gün Avropa Şurasına üzv dövlətlərin əsas məqsədidir, bu isə o deməkdir ki, cinsi mənsubiyyətə əsaslanan fərqli rəftarın Konvensiyaya uyğun hesab edilməsi üçün əsaslı səbəblər gətirilməlidir. Konkret olaraq, ölkədəki ənənələrə, ümumi fərziyyələrə və ya cəmiyyətdə hökm sürən münasibətlərə istinad edilməsi cinsi mənsubiyyətə əsaslanan fərqli rəftara yol verilməsi üçün yetərli deyil.

## Soyad seçimi və valideynlərin soyadlarının övladlarına ötürülməsi

**Burghartz İsveçrəyə qarşı**

22 fevral 1994-cü il

Ərizəçilər 1984-cü ildə Almaniyada evlənmiş və Almaniya qanunlarına uyğun olaraq arvadın "Burqharts" soyadını ailə soyadı olaraq seçmişlər. Ər isə bu soyadın qarşısında öz soyadını qoymaq və beləliklə "Şnayder-Burqharts" adlandırılmaq hüququndan istifadə etmişdir. İsveçrə qeydiyyat bürosu (Zivilstandsamt) "Şnayder" soyadını onların ortaq soyadı kimi qeyd etmiş, nəticədə cütlük "Burqharts" soyadının onların ailə soyadı, "Şnayder-Burqharts" soyadının isə ikinci ərizəçinin soyadı kimi göstərilməsi üçün müraciət etmişdir. Ərizəçilər şikayət etmişlər ki, İsveçrənin dövlət orqanları ikinci ərizəçini öz soyadını ailə soyadından əvvəl qoymaq hüququndan məhrum etmişlər, hərçənd ki, İsveçrə qanunvericiliyi ərlərinin soyadını öz ailə soyadı kimi seçmiş evli qadınlara bu imkanı verir. Onlar bunun cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkiliklə nəticələndiyini bildirmişlər.

Məhkəmə qərara almışdır ki, barəsində şikayət edilən fərqli rəftarın obyektiv və ağlabatan əsası olmamışdır və buna görə də Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsinə** (ayrı-seçkiliyin qadağan olunması) zidd olmuşdur. Konkret olaraq, barəsində şikayət edilən sistemin müdafiəsi üzrə ailənin vahidliyi məqsədilə vahid soyadda əks olunmasını əsas gətirən İsveçrənin qanunverici orqanının mövqeyini dəstəkləyən İsveçrə Hökumətinin yanaşması Məhkəmə üçün inandırıcı olmamışdır. Həqiqətən də ər ortaq ailə soyadı olaraq qəbul edilmiş arvadının soyadına öz soyadını əlavə etsə idi, bu ailə soyadını Mülki Məcəllə ilə icazə verildiyi kimi əks qaydada seçilən ailə soyadına nisbətən heç də daha az əks etdirməyəcəkdi.

İkincisi, burada həqiqi bir ənənədən söhbət getdiyini söyləmək olmazdı: evli qadınlar ərizəçinin yalnız 1984-cü ildən etibarən faydalanmaq istədiyi hüquqdan istifadə edirdilər. İstənilən halda, Konvensiya və xüsusən də ayrı-seçkiliyin yolverilməzliyi prinsipinin əhəmiyyəti hazırki dövrün şərtləri altında şərh olunmalıdır. Eyni zamanda, ərlə arvadın ailə soyadı seçərkən soyadlardan birinə nisbətən digərinə üstünlük verməsində hər hansı fərqli rəftarın olduğu barədə nəticə çıxarmaq olmazdı. Hökumətin iddia etdiyinin əksinə olaraq, bu məsələdə arvada nisbətən ərin daha çox diqqətli olduğunu söyləmək mümkün deyildi. Bu səbəbdən, hər bir vəziyyətdə fərqli nəticələrin nəzərə alınacağını gözləmək əsassız idi. Nəhayət, digər soyad növlərinə (məsələn, soyadda iki soyadın birləşdirilməsinə və ya soyadın hər hansı digər qeyri-rəsmi istifadə üsuluna) gəldikdə, Federal Məhkəmə özü onları şəxsin rəsmi sənədlərində əks oluna biləcək yeganə qanuni ailə soyadından fərqləndirmişdi. Bu səbəbdən, həmin soyadlar sonuncuya bərabər tutula bilməzdilər.

**Losonci Rose və Rose İtaliyaya qarşı**

9 noyabr 2010-cu il

Ərizəçilər – Macarıstan vətəndaşı və onun İsveçrə vətəndaşı olan arvadı nikaha daxil olmazdan əvvəl doğum, ölüm və nikahların qeydiyyatı orqanına bildirmişdilər ki, ikisindən birinə ikili soyad seçmək əvəzinə hər biri öz soyadını saxlamaq niyyətindədirlər. Bu müraciətləri dövlət orqanları tərəfindən rədd edildikdən sonra onlar evlənə bilmək üçün arvadın soyadını ailə soyadı olaraq götürəcəklərinə qərar vermişdilər. Nikahdan sonra birinci ərizəçi milli qanunvericiliyə uyğun olaraq tələb etmişdir ki, müvəqqəti olaraq seçdiyi ikili soyad arvadının soyadında heç bir dəyişiklik edilmədən reyestrdə onun əvvəlki yeganə soyadı ilə əvəz edilsin. Federal Məhkəmə bu tələbi rədd edərək bildirmişdir ki, arvadının soyadını ailə soyadı kimi qəbul etmək barədə birinci ərizəçinin əvvəlki qərarı o deməkdir ki, onun soyadının Macarıstan qanunvericiliyi ilə tənzimlənməsi barədə istəyi qanuna uyğun deyil. Ərizəçilərin bildirdiyinə görə, onların cinsi mənsubiyyəti indikinin əksinə olsa idi, belə vəziyyət meydana çıxa bilməzdi. Çünki ərin soyadı avtomatik olaraq ailə soyadına çevriləcəkdi və onun arvadı öz soyad seçimini ölkəsinin milli qanunvericiliyi ilə tənzimləməkdə sərbəst olacaqdı.

İsveçrə Hökumətinin gətirdiyi arqument ağlabatan görünmədiyinə və fərqli rəftar ayrı-seçkilik xarakteri daşıdığına görə Məhkəmə bu qənaətə gəlmişdir ki, İsveçrədə qüvvədə olan normalar fərqli vətəndaşlıqları olan kişinin və ya qadının İsveçrə vətəndaşlığına malik olmasından asılı olaraq belə cütlüklər arasında ayrı-seçkiliyə səbəb olur. Ona görə də Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğu** qərara alınmışdır. Bununla bağlı, Məhkəmə xüsusi olaraq qeyd etmişdir ki, ailə soyadı seçimində ərlə arvadın bərabərliyi məsələsində Avropa Şurasına üzv dövlətlərdə konsensus yaranmaqdadır və Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti nikahda olan hər bir kəsin öz soyadını saxlamaq və ya yeni ailə soyadı seçmək məsələsində bərabər seçim hüququnun tanınmasına yönəlmişdir.

**Ünal Tekeli Türkiyəyə qarşı**

16 noyabr 2004-cü il

1990-cı ildə təcrübəçi hüquqşünas kimi işləyən ərizəçi nikah bağladıqdan sonra ərinin soyadını götürmüş, peşə həyatında qızlıq soyadı ilə tanındığı üçün onu ərinin soyadının qarşısında istifadə etməyə davam etmişdir. Lakin o, rəsmi sənədlərdə hər iki soyaddan birlikdə istifadə edə bilməmişdir. Ərizəçi evli kişilərə evləndikdən sonra da öz soyadlarını daşımağa davam etmək imkanının verilməsi səbəbilə ayrı-seçkiliyə məruz qalmasından şikayət etmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**.

Belə ki, ərin soyadının ailəyə verilməsi faktının eyni soyada sahib olmaqla ailənin vahidliyini əks etdirmək üçün nəzərdə tutulan ənənədən qaynaqlandığı barədə Türkiyə Hökumətinin arqumenti həlledici amil deyil.
Ailənin vahidliyi arvadın soyadının və ya evli cütlük tərəfindən seçilən ortaq soyadın ailə soyadı kimi seçilməsi ilə təmin edilə bilərdi. Üstəlik, digər Avropa hüquq sistemlərində qəbul edilmiş həll variantı ilə təsdiqləndiyi kimi, evli cütlük ortaq soyadı daşımamaq qərarına gəldikdə də ailənin vahidliyi qorunub möhkəmləndirilə bilər. Müvafiq olaraq, evli qadınların üzərinə ailənin vahidliyi naminə ərin soyadını daşımaq öhdəliyinin qoyulması (hətta qızlıq soyadını həmin soyadın qarşısına qoymaq imkanı olsa belə) heç bir obyektiv və ağlabatan əsasa malik deyildi. Məhkəmə Avropa Şurasının iştirakçısı olan dövlətlərdə ərlə arvad arasında bərabər əsasda soyad seçilməsi məsələsində konsensusun formalaşdığını xüsusi qeyd edərək qərarında bildirmişdir ki, Türkiyə hətta cütlük fərqli qərar qəbul etsə belə, qanunla ərin soyadının ailə soyadı kimi götürülməsini (və beləliklə, qadının nikah bağlayarkən öz soyadını avtomatik itirməsini) tətbiq edən yeganə üzv dövlətdir. Etiraf etmək lazımdır ki, 2001-ci ilin noyabr ayında Türkiyədə aparılan islahatlar ailə və övlad məsələləri ilə bağlı iqtisadi fəaliyyətlərdə və qərarların qəbulunda cütlüyün təmsil edilməsində arvadın ərlə bərabər vəziyyətdə olmasını təmin etmək məqsədi daşıyırdı. Lakin evləndikdən sonra ailə soyadının seçilməsi, o cümlədən evli qadınların ərinin soyadını götürmək öhdəliyini daşıması barədə müddəalar dəyişməz qalmışdır.

*Həmçinin bax*: ***Tuncer Güneş Türkiyəyə qarşı***, 3 sentyabr 2013-cü il tarixli qərar.

**Cusan və Fazzo İtaliyaya qarşı**

7 yanvar 2014-cü il

Bu iş atanın soyadının övladlarına ötürülməsinə etirazla əlaqədar idi. Evli cütlük olan ərizəçilər şikayət etmişlər ki, İtalyanın dövlət orqanları onların qızlarına anasının soyadını vermək istəklərini təmin etməkdən imtina ediblər və həmin dövrdə qüvvədə olan İtaliya qanunvericiliyinə əsasən qanuni nikahdan olan uşaqlara atanın soyadının verilməsi məcburidir. Onlar hesab edirdilər ki, qanunla valideynlərin övladlarının soyadını seçməsinə icazə verilməlidir.
Məhkəmə qərara almışdır ki, qızları doğularkən ərizəçilərin onu doğum, nikah və ölüm faktlarının reyestrinə ananın soyadı ilə daxil etməsinin qeyri-mümkün olması səbəbindən Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Bu qeyri-mümkünlük İtaliyanın hüquq sistemindəki çatışmazlıqdan irəli gəlirdi ki, "qanuni nikahdan doğulan uşaq" doğum, nikah və ölüm faktlarının reyestrinə ailə soyadı qismində atanın soyadı ilə daxil edilirdi və hətta cütlük ananın soyadından istifadə etməyə razı olsa belə, bu qaydadan kənara çıxmaq mümkün deyildi. Nəticə etibarilə, Məhkəmə Konvensiyanın **46-cı maddəsinə** (qərarların məcburi qüvvəsi və icrası) əsasən qeyd etmişdir ki, İtaliyanın qanunvericiliyi və (və ya) praktikasının bu qərarda çıxarılmış nəticələrə və Konvensiyanın 8 və 14-cü maddələrinin tələblərinə uyğunluğunu təmin etmək üçün islahatlar aparılmalıdır.

**León Madrid İspaniyaya qarşı**

26 oktyabr 2021-ci il

Bu iş azyaşlı (2005-ci il təvəllüdlü) qızının qeydiyyata alınmış soyadlarının ardıcıllıq sırasını dəyişdirmək barədə ərizəçinin müraciəti ilə əlaqədar idi. Sözügedən dövrdə İspaniya qanunvericiliyi valideynlər arasında fikir ayrılığı olduqda uşağın soyadı kimi öncə atasının və sonra anasının soyadının qeyd edilməsini nəzərdə tuturdu. Ərizəçi iddia etmişdir ki, bu qayda ayrı-seçkilik xarakteri daşıyır.
Məhkəmə İspaniya dövləti tərəfindən ərizəçiyə münasibətdə fərqli rəftara haqq qazandırmaq üçün göstərilən səbəblərin kifayət qədər obyektiv və əsaslı olmadığı qənaətinə gələrək, Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara almışdır.

Məhkəmənin fikrincə, xüsusilə müvafiq dövrdə qanunun tətbiqinin avtomatik xarakteri (bu, ölkədaxili məhkəmələrin baxılan işin konkret hallarını nəzərə almasına imkan vermirdi) Konvensiya baxımından əsaslandırıla bilməzdi.
Baxmayaraq ki, valideynlər arasında razılıq olmadığı hallarda atanın soyadının birinci yerdə olmasını nəzərdə tutan qayda praktikada zəruri ola bilərdi və onun Konvensiyaya uyğun olması vacib sayılmaya bilərdi, istisnaya nail olmağın mümkünsüzlüyü qadınlara qarşı həddindən artıq sərt və ayrı-seçkilik xarakteri daşıyırdı.
Bundan əlavə, atanın soyadının birinci yazılması hüquqi müəyyənlik məqsədinə xidmət edə bilərdisə, ananın soyadının birinci yazılması da eyni məqsədə xidmət edə bilərdi.

## Əlillik müavinətinin hesablanması

### di Trizio İsveçrəyə qarşı

2 fevral 2016-cı il

Əvvəlcə tam iş günü ilə çalışan ərizəçi belindəki problemlər səbəbindən 2002-ci ilin iyun ayında işdən çıxmalı olmuşdur. 2002-ci ilin iyun ayından əkizlərinin doğulmasına qədər olan müddət ərzində ona 50% əlillik müavinəti təyin edilmişdir. Sonradan müavinətin verilməsi "kombinasiyalı metodun" tətbiqi səbəbindən dayandırılmışdır. Həmin metod belə bir ehtimala əsaslanırdı ki, ərizəçi əlil olmasa idi belə, övladlarının anadan olmasından sonra tam iş günü ilə çalışmayacaqdı. O, cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qalması barədə şikayət etmişdir.
Məhkəmə ərizəçinin məruz qaldığı fərqli rəftarın hər hansı ağlabatan əsasının olduğuna əmin olmayaraq qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə İsveçrə Hökumətinin bu arqumentini qəbul etmişdir ki, əlillik sığortası fərdləri ödənişli işlə məşğul ola bilməmək riskindən və ya sağlam vəziyyətdə olduqları zaman yerinə yetirdikləri gündəlik işləri yerinə yetirmək imkanını itirmək riskindən sığortalamaq məqsədi daşıyır. Lakin Məhkəmə hesab etmişdir ki, bu məqsəd gender bərabərliyi baxımından qiymətləndirilməlidir. Ərizəçinin işində Məhkəmə qeyd etmişdir ki, ərizəçi tam iş günü ilə çalışmaqda və ya bütün vaxtını ev işlərinə həsr etməkdə davam etsə idi, yəqin ki, qismən əlillik müavinəti alacaqdı. Əvvəllər tam iş günü ilə çalışmış ərizəçiyə müavinət təyin edilmişdi və o, övladları dünyaya gələnə qədər müavinət almağa davam etmişdi. Beləliklə, onun müavinət hüququnu təmin etməkdən imtina barədə qərar onun iş saatlarını azaltmaq və uşaqlarının və evinin qayğısına qalmaq barədə müraciətinə əsaslanıb. Praktikada uşaqlarının doğulmasından sonra yarım natamam iş günü ilə çalışmaq istəyən qadınların böyük əksəriyyətinə tətbiq edilən və 98% hallarda qadınlara şamil olunan "kombinasiyalı metod" ayrı-seçkilik mənbəyi idi.

## Uşağın yaşayış yerinin müəyyənləşdirilməsi

### Tapayeva və başqaları Rusiyaya qarşı[3]

23 noyabr 2021-ci il

Ərizəçilər – Çeçenistan Respublikasında yaşayan ana və dörd qızı idi. İş birinci ərizəçinin qızlarına qovuşmasının dövlət tərəfindən təmin edilməsinə nail olmaq cəhdləri ilə əlaqədar idi. Birinci ərizəçi iddia etmişdir ki, uşaqların atası hərbi xidmətdə olarkən həlak olduqdan sonra onları ata tərəfdən babaları qaçırmış və həmin vaxtdan bəri ananın qızları ilə görüşməsinə icazə verilməmişdir.
Məhkəmə qərara almışdır ki, ata tərəfdən babalarının uşaqları qaçırmasından sonra ana və uşaqların qovuşması üçün səlahiyyətli ölkədaxili orqanların ağlabatan və operativ tədbirlər görməməsi səbəbindən bütün ərizəçilərə münasibətdə Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulmuşdur**. Məhkəmə həmçinin

[3] 16 sentyabr 2022-ci il tarixində Rusiya Federasiyası Konvensiyada iştirakına xitam vermişdir.

birinci ərizəçiyə münasibətdə Konvensiyanın **8-ci maddəsi ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, hazırkı işdə müvafiq qanunvericiliyin praktikada tətbiq edilmə üsulu ərizəçinin cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmasına bərabərdir və cavabdeh dövlət tərəfindən bununla bağlı heç bir obyektiv və ağlabatan əsaslandırma təqdim edilməmişdir. Bu işdə Məhkəmə xüsusilə qeyd etmişdir ki, dul qadın olan birinci ərizəçiyə regional gender stereotipləri və patriarxal təcrübələr fonunda ata tərəfdən babalarının qaçırdığı uşaqları ilə qovuşmasına köməklik göstərilməmişdir.

## Cinsi inkişaf fərqləri

**Ərizə Böyük Palatanın icraatına verilmişdir**

**Semenya İsveçrəyə qarşı**

11 iyul 2023-cü il (Böyük Palata) – İş 2023-cü ilin noyabrında Böyük Palataya göndərilmişdir.

Orta məsafəli qaçış yarışları üzrə ixtisaslaşmış beynəlxalq səviyyəli idmançı olan ərizəçi Beynəlxalq Yüngül Atletika Federasiyaları Assosiasiyasının (IAAF) (hazırda Ümumdünya Yüngül Atletika Assosiasiyası adlanır) müəyyən qaydalarından şikayət edərək bildirmişdir ki, həmin qaydalar qadın kateqoriyasında beynəlxalq yarışlarda iştirak edə bilməsi üçün onun təbii testosteron səviyyəsini aşağı salmaqdan ötrü hormonal müalicə almasını tələb edir. Müalicədən imtina etdiyi üçün ərizəçi artıq beynəlxalq yarışlarda iştirak edə bilmir. Onun İdman Arbitraj Məhkəməsi (CAS) və İsveçrə Federal Məhkəməsi qarşısında sözügedən qaydalardan şikayət etmək üçün qaldırdığı iddiaları rədd edilmişdir. Ərizəçi bildirir ki, daha yüksək təbii testosteron səviyyəsinə malik olması ilə nəticələnmiş cinsi inkişaf fərqlərinə görə ayrı-seçkiliyə məruz qalmışdır. O, həmçinin qərarlara yenidən baxımasında Federal Məhkəmənin səlahiyyətinin məhdud olmasına dair şikayət etmişdir.

Palatanın 11 iyul 2023-cü il tarixli qərarında Məhkəmə səs çoxluğu ilə qərara almışdır ki, ərizəçiyə münasibətdə Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Palata xüsusilə qeyd etmişdir ki, ərizəçi İsveçrədə onun şikayətlərinin səmərəli şəkildə araşdırılmasına imkan verəcək kifayət qədər institusional və prosessual təminatlara malik olmamışdır, çünki onun şikayətləri onda cinsi inkişaf fərqlərinin səbəb olduğu testosteron səviyyəsinin artması ilə əlaqədar olaraq ayrı-seçkiliyə məruz qaldığı barədə əsaslandırılmış və mötəbər dəlillərlə bağlı idi. Bu işin konkret olaraq ərizəçinin böyük əhəmiyyət daşıyan şəxsi marağı ilə, yəni beynəlxalq səviyyəli yüngül atletika yarışlarında iştirak etmək və beləliklə öz professional fəaliyyəti ilə məşğul olmaq marağı ilə bağlı olduğunu nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, İsveçrə cinsi mənsubiyyətə və cinsi xüsusiyyətlərə görə ayrı-seçkiliyə aid olan hazırkı işdə ona verilən məhdud çərçivəli qiymətləndirmə sərbəstliyinin hüdudlarını aşıb. Belə ki, bu işdə fərqli rəftara haqq qazandırmaq üçün "çox ciddi səbəblərin" göstərilməsi tələb olunurdu. Ərizəçi üçün işin böyük əhəmiyyət daşıması və cavabdeh dövlətə verilən qiymətləndirmə sərbəstliyinin hüdudlarının məhdud olması nəzərə alınaraq hərtərəfli institusional və prosessual araşdırma aparılmalı idi, lakin ərizəçi belə bir araşdırma aparılmasına nail olmaq imkanına malik deyildi. Palata, həmçinin ərizəçinin Konvensiyanın **8-ci maddəsi ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsi** üzrə şikayətinə münasibətdə Konvensiyanın **13-cü maddəsinin** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, ərizəçi üçün əlçatan olan daxili hüquqi müdafiə vasitələri hazırkı işin halları baxımından səmərəli hesab edilə bilməzdi.

6 noyabr 2023-cü ildə Böyük Palatanın beş hakimdən ibarət kollegiyası işin Böyük Palatanın icraatına verilməsi barədə qərar qəbul etmişdir.

## Cinsi mənsubiyyətə görə işdən çıxarılma

**Emel Boyraz Türkiyəyə qarşı**

2 dekabr 2014-cü il

Bu iş cinsi mənsubiyyətinə görə işçinin dövlət sektorundakı işindən (dövlətə məxsus elektrik şirkətindəki işdən) çıxarılması ilə əlaqədar idi. Ərizəçi təxminən üç il mühafizə xidmətinin əməkdaşı vəzifəsində işləmiş, kişi olmadığına və hərbi xidmət keçmədiyinə görə 2004-cü ilin martında vəzifəsindən azad edilmişdi. O şikayət etmişdir ki, milli məhkəmə prosesində onun əleyhinə çıxarılmış qərarlar onun cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə bərabərdir. Ərizəçi, həmçinin bildirmişdir ki, işdən çıxarılması ilə bağlı inzibati icraat həddindən artıq uzun sürmüş və ədalətsiz olmuşdur.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmənin şərhinə görə, mühafizə xidməti əməkdaşlarının gecə növbələrində və kənd yerlərində işləmələri, eləcə də müəyyən şərtlər daxilində odlu silah və fiziki güc tətbiq etmələri kişilərə və qadınlara münasibətdə fərqli rəftara heç bir əsas vermir. Üstəlik, ərizəçinin işdən çıxarılmasının səbəbi bu cür riskləri və ya məsuliyyəti öz üzərinə götürə bilməməsi deyildi, onun vəzifələrini yerinə yetirə bilmədiyini göstərən bir fakt mövcud deyildi, yeganə səbəb Türkiyə inzibati məhkəmələrinin qərarları idi. Həmçinin Məhkəmə hesab etmişdir ki, inzibati məhkəmələr dövlətə məxsus elektrik şirkətinin filialında yalnız kişi işçilərin mühafizə xidmətinin əməkdaşı vəzifəsinə işə götürülməsi barədə tələbi əsaslandırmamışlar. Bununla bağlı, Məhkəmə Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndinin də** (ağlabatan müddətdə ədalətli məhkəmə araşdırması hüququ) **pozulduğunu** qərara almışdır.

*Həmçinin bax:* ***Hülya Ebru Demirel Türkiyəyə qarşı***, 19 iyun 2018-ci il tarixli qərar.

## Ailə müavinəti ödənişləri

**Yocheva və Ganeva Bolqarıstana qarşı**

11 may 2021-ci il

Birinci ərizəçiyə – atalarının öz övladı kimi tanımadığı yetkinlik yaşına çatmamış uşaqları olan ərsiz anaya uşaqların yalnız bir valideyninin olduğu ailələrə təyin edilən aylıq müavinətin verilməsindən imtina edilmişdi. O, ayrı-seçkiliyə məruz qalması ilə bağlı milli məhkəmələrdə iddia qaldırmış, lakin məhkəmə prosesi uğursuzluqla nəticələnmişdi.

Məhkəmə birinci ərizəçiyə münasibətdə Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq onun həm ailə vəziyyətinə, həm də cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qaldığını müəyyən etmişdir. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, analıq doğuş aktı ilə müəyyən edildiyinə görə əksər hallarda uşaqların yalnız atası naməlum ola bilər; naməlum atadan dünyaya gəlmiş uşaqların anası kimi ərizəçi qanuna uyğun olaraq tələb olunan sənədləri təqdim edə bilməzdi, halbuki uşaqlarının anası vəfat etmiş tək ata adətən bunu edə bilərdi. Bolqarıstanın səlahiyyətli orqanları tərəfindən inandırıcı arqumentlər gətirilmədiyinə görə, Məhkəmə qərara almışdır ki, onlar birinci ərizəçinin ailəsinin müavinət almaq imkanından məhrum edilməsi üçün ağlabatan və ya obyektiv əsaslar təqdim etməmişlər.

## İmmiqrasiya qaydaları

**Abdulaziz, Cabales və Balkandali Birləşmiş Krallığa qarşı**

28 may 1985-ci il

Ərizəçilər qanuni şəkildə və daimi olaraq Birləşmiş Krallıqda məskunlaşmışdılar.

Həmin dövrdə qüvvədə olan immiqrasiya qaydalarına uyğun olaraq, onların ərlərinə bu ölkədə onların yanında qalmasına və ya onların yanına gəlməsinə icazə verilməmişdir. Ərizəçilər bu səbəbdən cinsi və irqi mənsubiyyətlərinə görə ayrı-seçkilik qurbanı olduqları barədə şikayət etmişlər.
Məhkəmə ərizəçilərin irqi mənsubiyyətə görə ayrı-seçkilik qurbanı olmadıqları barədə qərar çıxarmışdır. Digər tərəfdən, Məhkəmə belə bir qənaətə gəlmişdir ki, onlar cinsi mənsubiyyətə görə ayrı-seçkilik qurbanıdırlar (əcnəbi vətəndaş olan həyat yoldaşlarının ölkəyə daxil olmasına və ya orada qalmasına icazə verilməsi məsələsində kişi və qadın immiqrantlarla fərqli rəftar edilir) və ona görə də Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**.

## Şəxsin azadlıqdan məhrum etmə cəzasının icrasını dayandırmaqdan imtina və şəxsi həyata və ailə həyatına hörmət hüququ

### Alexandru Enache Rumıniyaya qarşı

3 oktyabr 2017-ci il

Bu iş konkret olaraq məhkumun cinsi ayrı-seçkilik barədə şikayəti ilə əlaqədar idi ki, Rumıniya qanunvericiliyinə əsasən, yaşı birədək olan uşaqların yalnız analarına övladının ilk doğum gününə qədər azadlıqdan məhrum etmə cəzasının icrasının dayandırılması üçün müraciət etmək hüququ verilirdi. Yaşı birə çatmayan uşağın atası olan ərizəçinin azadlıqdan məhrum etmə cəzasının icrasının dayandırılması üçün verdiyi ərizə Rumıniya məhkəmələri tərəfindən rədd edilmiş və belə əsas gətirilmişdi ki, sözügedən müddəa məhdud şəkildə şərh olunmalıdır.
Məhkəmə iki səsə qarşı beş səslə qərara almışdır ki, ərizəçinin cinsi mənsubiyyətə görə ayrı-seçkilik barədə şikayəti ilə bağlı Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**. Məhkəmənin gəldiyi qənaətə görə, barəsində şikayət edilən istisna fərqi rəftar təşkil etmirdi və istifadə edilən vasitələrlə qarşıya qoyulan qanuni məqsəd (uşağın mənafelərini və uşağın həyatının birinci ilində ana ilə onun arasında xüsusi bağları qorumaq) arasında ağlabatan mütənasiblik əlaqəsi var idi. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, qadın məhkumların cəzasının icrasının dayandırılmasına icazə verilməsi avtomatik baş vermirdi və həmin dövrdə qüvvədə olan Rumıniya cinayət qanunvericiliyinə əsasən, cinsi mənsubiyyətindən asılı olmayaraq bütün məhkumlar cəzalarının icrasının dayandırılması üçün müraciət edə bilmələrindən ötrü digər kanallarla təmin edilirdi. Eyni zamanda, sözügedən qanunvericilik normalarının məqsədi konkret fərdi situasiyaları, xüsusən hamiləlik dövründə və körpənin həyatının ilk ilində ana ilə uşaq arasındakı unikal bağlarla əlaqədar durumları nəzərə almaqdan ibarət idi. Məhkəmənin rəyinə görə, bu məqsəd Konvensiyanın 14-cü maddəsində nəzərdə tutulan mənada qanuni sayıla bilərdi və Rumıniya Hökumətinin təqdim etdiyi arqumentlər açıq-aydın əsassız və ya məntiqsiz deyildi. Buna görə də Məhkəmə hesab etmişdir ki, yuxarıdakı mülahizələr bu işin aid olduğu xüsusi sahədə ərizəçiyə qarşı fərqli rəftara haqq qazandırmaq üçün yetərli əsas təşkil edə bilər. Analıq elə spesifik xüsusiyyətlərə malikdir ki, digər məsələlərlə yanaşı, onları nəzərə almaq və qoruyucu tədbirlər vasitəsilə qorumaq lazımdır.

## Valideynlik məzuniyyəti və uşağa qulluq üçün müavinətlər

### Petrovic Avstriyaya qarşı

27 mart 1998-ci il

Nəzərdən keçirilən dövrdə ərizəçi tələbə idi və natamam iş günü ilə çalışırdı. Universitet təhsilini artıq bitirən və federal nazirlikdə dövlət qulluqçusu olan arvadı 1989-cu ilin fevralında uşaq dünyaya gətirdi.

O, işləməkdə davam etdi, ərizəçi isə uşağa qulluq etmək üçün valideynlik məzuniyyəti götürdü. Ərizəçi Avstriyanın dövlət orqanlarının "İşsizlik müavinəti haqqında" 1977-ci il tarixli Qanun əsasında ona ödənişli valideynlik məzuniyyəti verməkdən imtina etməsindən şikayət etmişdir ki, həmin qanunda yalnız anaların bu cür ödəniş almaq hüququna malik olması nəzərdə tutulmuşdu. O, cinsi mənsubiyyətinə görə ayrı-seçkilik qurbanı olduğunu bildirmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır** və bu qənaətə gəlmişdir ki, Avstriyanın dövlət orqanları ərizəçiyə ödənişli valideyn məzuniyyəti verməkdən imtina edərkən onlara verilmiş qiymətləndirmə sərbəstliyinin hüdudlarını aşmayıblar və buna görə də barəsində şikayət edilən fərqli rəftar 14-cü maddədə nəzərdə tutulan mənada ayrı-seçkilik xarakteri daşımayıb. Konkret olaraq aydın idi ki, həmin dövrdə iştirakçı dövlətlərin əksəriyyətində atalara ödənişli məzuniyyət verilməsi nəzərdə tutulmamışdır. Cütlüyün seçimi əsasında valideynlərdən birinin evdə qalması və uşaqlara qulluq etməsi üçün dövlətin anaya və ya ataya maddi yardım göstərməsi ideyası nisbətən yeni idi. Əvvəlcə bu tip sosial təminat tədbirləri (məsələn, valideynlik məzuniyyəti) ilk növbədə anaları qorumaq və onların körpə uşaqlara qulluq etməsini təmin etmək məqsədi daşıyırdı. Yalnız tədricən cəmiyyət uşaqların tərbiyəsi məsələsində qadınlar və kişilər arasında vəzifələrin bərabər bölüşdürülməsinə doğru irəlilədikcə, iştirakçı dövlətlər valideynlik məzuniyyətini atalara da şamil etdilər. Bu baxımdan, Avstriya qanunvericiliyi də eyni qaydada təkamül etmişdi və Avstriyanın qanunverici orqanı 1989-cu ildə atalara valideynlik məzuniyyətinin verilməsini nəzərdə tutan qanun qəbul etmişdi. Buna paralel olaraq, 1990-cı ildə atalara ödənişli valideynlik məzuniyyəti hüququ verildi. Beləliklə, cəmiyyətin bu sahədəki təkamülünü əks etdirən qanunvericiliyi tədricən qəbul etdiyinə görə Avstriyanın qanunverici orqanını tənqid etmək çətindir, habelə bütün hallar nəzərdə alınarsa, Avstriya qanunvericiliyi Avropada ən mütərəqqi qanunvericilik hesab olunur. Bundan əlavə, iştirakçı dövlətlərin bu sahədəki hüquq sistemləri arasında hələ də çox böyük uyğunsuzluq qalmaqdadır. Atalara valideynlik məzuniyyəti hüququ vermək üçün bir çox dövlətlər tərəfindən tədbirlər görülsə də, yalnız çox az sayda dövlət atalara ödənişli məzuniyyət hüququ vermişdir.

**Konstantin Markin Rusiyaya qarşı**

22 mart 2012-ci il (Böyük Palata)

Bu iş Rusiya dövlət orqanlarının silahlı qüvvələrdə radiokəşfiyyat operatoru vəzifəsində çalışan boşanmış ərizəçiyə valideynlik məzuniyyəti verməkdən imtina etməsi ilə əlaqədar idi. Ərizəçi silahlı qüvvələrin qadın personalı və mülki sahədə çalışan qadınlarla müqayisədə fərqli rəftara məruz qalmasından şikayət etmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**, çünki hərbçi qadınların valideynlik məzuniyyəti hüququ olduğu halda hərbçi kişilərin bu cür məzuniyyət hüququna malik olmamasının ağlabatan və ya obyektiv əsasının olduğunu söyləmək olmazdı. Beləliklə, ərizəçinin qurban qismində məruz qaldığı bu fərqli rəftar cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə bərabər idi. Konkret olaraq, Məhkəmə Konvensiya iştirakçısı olan dövlətlərdəki vəziyyəti nəzərdən keçirərək qeyd etmişdir ki, Rusiyanın özü də daxil olmaqla əksər Avropa ölkələrində qanunvericilik mülki sahədə kişilərin və qadınların valideynlik məzuniyyətinə çıxmasına icazə verir. Bundan əlavə, bir çox dövlətlərdə həm kişi, həm də qadın hərbi qulluqçular valideynlik məzuniyyəti hüququna malikdirlər.

Nəticə etibarilə bu onu göstərir ki, çağdaş Avropa cəmiyyətləri uşaqların tərbiyəsi məsələsində qadınlar və kişilər arasında vəzifələrin daha çox bərabər bölüşdürülməsinə doğru irəliləyirlər. Bu qərarında Məhkəmə təsdiq etmişdir ki, milli təhlükəsizliyin qorunmasında ordunun əhəmiyyətini nəzərə alaraq, valideynlik məzuniyyəti hüququna qoyulan müəyyən məhdudiyyətlərə haqq qazandırmaq olar, bu şərtlə ki, onlar ayrı-seçkilik xarakteri daşımasın (məsələn, kişi və ya qadın hərbi qulluqçular xidmətlərini xüsusi iyerarxiya üzrə aparmaları, nadir texniki ixtisaslaşmaları və ya aktiv hərbi

əməliyyatlarda iştirakları səbəbindən asanlıqla əvəzlənə bilmədikləri təqdirdə valideynlik məzuniyyəti hüququ onlara şamil edilməyə bilər). Rusiyada isə, əksinə valideynlik məzuniyyəti hüququ yalnız şəxsin cinsi mənsubiyyətindən asılı idi. Mövcud qanunvericilik kişi hərbi qulluqçuları bu hüquqdan məhrum etməklə onlara ümumi məhdudiyyət tətbiq edirdi. Məhkəmə bu qənaətə gəlmişdir ki, belə ümumi və avtomatik məhdudiyyət cinsi mənsubiyyətinə görə bir qrup insana tətbiq edildiyinə görə bu hal dövlətin qəbul edilə bilən qiymətləndirmə sərbəstliyinin hüdudlarını aşır. Radiooperator funksiyasının yerinə yetirilməsi üçün ərizəçinin asanlıqla hərbçi qadınlarla əvəz oluna biləcəyini nəzərə alsaq, valideynlik məzuniyyəti hüququnun ona şamil edilməməsinə heç nə ilə haqq qazandırmaq olmazdı.

### Hulea Rumıniyaya qarşı

2 oktyabr 2012-ci il

Bu iş hərbi qulluqçuya valideynlik məzuniyyəti hüququ ilə bağlı ayrı-seçkiliyə görə kompensasiya verilməsindən imtina ilə əlaqədar idi.

Məhkəmə qərara almışdır ki, Rumıniya məhkəmələri tərəfindən ərizəçiyə ailə həyatı ilə bağlı hüquqlarını həyata keçirərkən ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulmasına görə kompensasiya verməkdən imtina edilməsi yetərli səbəblərə əsaslanmadığı səbəbilə Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-ci maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur.** Bu baxımdan, Apellyasiya Məhkəməsinin öz qərarında gətirdiyi əsasların ayrı-seçkilik xarakteri daşımaması əhəmiyyət kəsb etmirdi. Belə ki, həmin instansiya məhkəməsi valideynlik məzuniyyəti verilməsindən imtina ilə əlaqədar məruz qaldığı ayrı-seçkilik səbəbindən ərizəçiyə dəymiş mənəvi ziyanın kompensasiyası barədə qərar çıxarmaqdan yetərli əsaslar gətirmədən imtina etmişdi.

### Gruba və başqaları Rusiyaya qarşı[4]

6 iyul 2021-ci il

Bu iş kişi və qadın polis əməkdaşlarının valideynlik məzuniyyəti hüququ məsələsində fərqliliklə əlaqədar idi. Dörd ərizəçinin valideynlik məzuniyyəti ilə bağlı müraciətləri mahiyyət etibarilə ona görə rədd edilmişdi ki, belə məzuniyyət yalnız övladı ana himayəsindən məhrum olmuş kişi polis əməkdaşına verilə bilərdi. Ərizəçilər şikayət etmişlər ki, onlara valideynlik məzuniyyəti verməkdən imtina edilməsi gender ayrı-seçkiliyinə bərabərdir.

Məhkəmə dörd ərizəçinin hamısına münasibətdə Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq onların cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qaldığını müəyyən etmiş və xüsusilə qeyd etmişdir ki: valideynlik məzuniyyəti hüququ ilə bağlı kişi və qadın polislərə münasibətdə fərqli rəftarın ağlabatan və obyektiv əsasa söykəndiyini söyləmək olmaz; polisin əməliyyat-axtarış fəaliyyətinin effektivliyinin qorunmasından ibarət qanuni məqsədlə mübahisə predmeti olan fərqli rəftar arasında ağlabatan mütənasiblik əlaqəsi yoxdur. Hazırkı işdə Məhkəmə, həmçinin bir daha vurğulamışdır ki, qadınların ilk növbədə uşağa qulluq edən şəxs, kişilərin isə ailənin maddi təminatçısı olaraq qəbul edilməsi kimi cinsiyyətçi stereotiplər valideynlik məzuniyyəti hüququ ilə bağlı kişi və qadınlara münasibətdə fərqli rəftar üçün yetərli əsas sayıla bilməz.

[4] 16 sentyabr 2022-ci il tarixində Rusiya Federasiyası Konvensiyada iştirakına xitam vermişdir.

## Həbsxana rejimində məhkumun məzuniyyət hüququnun tənzimlənməsi

**Ēcis Latviyaya qarşı**

10 yanvar 2019-cu il

Bu iş kişi məhkumun ərizəsi ilə əlaqədar idi və ərizəçi şikayət etmişdir ki, eyni cinayətə görə məhkum edilmiş kişilərə və qadınlara həbsxana rejimi tətbiq edilərkən və xüsusən məzuniyyət hüququ verilərkən onlarla fərqli rəftar edilir və bu da onun atasının dəfnində iştirak etmək imkanından məhrum olması ilə nəticələnmişdir.

Məhkəmə qərara almışdır ki, ağır cinayət törətmiş və eyni cəza almış kişi və qadınlarla fərqli rəftar edilməsi səbəbilə Konvensiyanın **8-ci maddəsi** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, kişilər avtomatik olaraq ən yüksək təhlükəsizlik kateqoriyalı həbsxanalara yerləşdirildiyi və qapalı həbsxanalarda saxlanıldığı halda qadınlar daha az ciddi rejimli və qismən qapalı həbsxanalara göndərilirlər. Qanunvericilik ərizəçinin dəfn mərasimində iştirakına avtomatik qadağa qoyulmasını nəzərdə tuturdu, halbuki qadın məhkum dəfn mərasimində iştirak etmək imkanına malik idi. Ərizəçinin işində belə bir qadağanın mütənasibliyi fərdi qaydada qiymətləndirilməmiş və o, Konvensiyanı pozan ayrı-seçkiliyə məruz qalmışdı.

## Dul kişiyə təyin edilmiş pensiyanın ödənişinə xitam verilməsi

**Beeler İsveçrəyə qarşı**

11 oktyabr 2022-ci il (Böyük Palata)

Bu iş ərizəçi kişinin ailə başçısını itirməyə görə aldığı pensiyanın ödənişinə kiçik övladı yetkinlik yaşına çatdıqdan sonra xitam verilməsi ilə əlaqədar idi, "Ahılların və ailə başçısını itirmiş şəxslərin sığortası haqqında" Federal Qanunda nəzərdə tutulurdu ki, kiçik övlad 18 yaşına çatdıqda ailə başçısının itirilməsinə görə dul kişinin pensiya almaq hüququna xitam verilir, dul qadına münasibətdə isə belə deyildi. Ərizəçi iddia etmişdir ki, o, eyni vəziyyətdə olan dul qadınlara münasibətdə ayrı-seçkiliyə məruz qalıb və onlar pensiya almaq hüququnu itirmirlər. İsveçrə dövləti bildirmişdir ki, qadının maddi ehtiyaclarının, xüsusən də əgər onun uşaqları varsa, kişi tərəfindən təmin edillməsi və beləliklə, dul qadınların müdafiəsinin dul kişilərə nisbətən daha yüksək səviyyədə müəyyən edilməsi prezumpsiyasına hələ də haqq qazandırmaq olar. Bu səbəbdən də fərqli rəftar gender stereotiplərinə deyil, sosial reallığa əsaslanmışdır.

Məhkəmə Konvensiyanın **8-ci maddəsi** (şəxsi və ailə həyatına hörmət hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, ərizəçinin məruz qaldığı qeyri-bərabər rəftarın ağlabatan və obyektiv əsasa söykəndiyini söyləmək olmaz.

Məhkəmə konkret olaraq qeyd etmişdir ki, ərizəçi dolanışıq ehtiyacları baxımından qadınla/dul xanımla analoji vəziyyətdə olsa da, onunla eyni cür rəftar edilməmişdir. Beləliklə, o, qeyri-bərabər rəftara məruz qalmışdır. İsveçrə dövləti cinsi əlamətə görə fərqli rəftara haqq qazandıran çox ciddi əsaslar və ya “xüsusilə tutarlı və inandırıcı

səbəblər” olduğunu sübuta yetirməmişdir. Məhkəmənin fikrincə, dövlət dul qadınlara nisbətən dul kişiləri əlverişsiz vəziyyətə salan fərqli rəftara haqq qazandırmaq üçün ərin arvadını maddi cəhətdən təmin etməsi prezumpsiyasına (“kişi ailə başçısı” konsepsiyasına) istinad edə bilməz. Məhkəmə müəyyən etmişdir ki, sözügedən qanunvericilik qadınların təbiəti və ya cəmiyyətdəki rolu ilə bağlı qərəzli fikirlərin və stereotiplərin davam etdirilməsinə daha çox şərait yaradır və həm qadınların karyerası, həm də kişilərin ailə həyatı üçün zərərlidir.

# Fikir, vicdan və din azadlığı

## Dini geyim geyinilməsi

### Dahlab İsveçrəyə qarşı

15 fevral 2001-ci il (ərizənin qəbuledilənliyinə dair qərar)

İslam dinini qəbul etmiş ibtidai məktəb müəllimi olan ərizəçi şikayət etmişdir ki, məktəb rəhbərliyi onun dərs keçərkən hicab geyinməsini qadağan edib və nəticədə bu qadağa 1997-ci ildə Federal Məhkəmə tərəfindən təsdiqlənib. O, konkret olaraq bildirmişdir ki, istənilən müsəlman kişi hər hansı formada qadağaya məruz qalmadan dövlət məktəbində dərs keçə bildiyi üçün İsveçrənin səlahiyyətli orqanları tərəfindən tətbiq edilmiş bu qadağa cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə bərabərdir.

Məhkəmə ərizəni açıq-aydın əsassız olduğuna görə **qəbuledilməz** elan etmiş və bildirmişdir ki, ərizəçinin sırf peşə vəzifələrinin icrası kontekstində baş örtüyünü qadağan edən tədbir qadın cinsinin nümayəndəsi olaraq ona qarşı yönəlməmişdi, dövlətin ibtidai təhsil sisteminin neytrallığını təmin etməkdən ibarət qanuni məqsəd daşıyırdı. Belə tədbir analoji vəziyyətdə olan, fərqli bir inancın nümayəndəsi olduğunu açıq şəkildə göstərən geyim geymiş kişiyə da tətbiq edilə bilərdi. Müvafiq olaraq, Məhkəmə hazırki işdə cinsi mənsubiyyətə görə heç bir ayrı-seçkilik olmadığı qənaətinə gəlmişdir.

### Leyla Şahin Türkiyəyə qarşı

10 noyabr 2005-ci il (Böyük Palata)

İslam dininə etiqad edən ənənəvi ailədən olan ərizəçi hicab geyinməyi öz dini vəzifəsi hesab edirdi. O, 1998-ci ildə İstanbul Universitetinin Tibb fakültəsində oxuyarkən tələbələrin dərsdə və ya imtahan zamanı bu cür hicab geyinmələrini qadağan edən qaydadan şikayət etmişdir ki, bu qadağa nəticədə ərizəçinin ölkəni tərk etməyə və təhsilini Avstriyada davam etdirməyə məcbur qalmasına səbəb olmuşdu.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **9-cu maddəsi** (fikir, vicdan və din azadlığı) **pozulmamışdır.** Belə ki, Türkiyə Konstitusiya Məhkəməsi tərəfindən izah edildiyi kimi, universitetlərdə dini rəmzlərin geyilməsinə (taxılmasına) qoyulan qadağanın kökündə dayanan əsas mülahizə dünyəvilik prinsipidir. Plüralizmin, digər şəxslərin hüquqlarına hörmətin və xüsusən də kişi və qadınların qanun qarşısında bərabərliyinin tədris edildiyi və praktikada tətbiq edildiyi bir şəraitdə əlaqədar orqanların müvafiq tədris müəssisəsinin dünyəvi xarakterini qorumaq niyyətində olmaları və bu səbəbdən də hazırki işdə olduğu kimi müsəlman hicabı da daxil olmaqla dini geyimlərin geyilməsinə icazə verilməsini bu cür dəyərlərə zidd hesab etmələri başadüşüləndir.

### S.A.S. Fransaya qarşı (Ərizə № 43835/11)

26 iyun 2014-cü il (Böyük Palata)

Bu iş müsəlmanlığı qəbul etmiş Fransa vətəndaşının şikayəti ilə əlaqədar idi ki, ictimai yerlərdə üzün gizlədilməsini qadağan edən qanunun 11 aprel 2011-ci ildə qüvvəyə minməsindən sonra onun ictimai yerlərdə üzünü bütünlüklə örtən hicab geyinməsinə icazə verilmirdi.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **8** (şəxsi həyata və ailə həyatına hörmət hüququ), **9-cu maddəsi** (fikir, vicdan və din azadlığı), həmçinin **8 və ya 9-cu maddələrlə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**. İş üzrə qərarda Məhkəmə xüsusi olaraq qeyd etmişdir ki, iştirakçı dövlət ərizəçi kimi qadınlar tərəfindən müdafiə edilən praktikanı bu maddələrdə təsbit edilmiş hüquqların həyata keçirilməsi kontekstində qadağan etmək üçün gender bərabərliyini əsas gətirməməli idi, amma digər tərəfdən bu qadağa fərdlərin əsas hüquq və azadlıqlarını həyata keçirmələrinin müdafiəsinə yönələn tədbir kimi də başa düşülə bilər.

## Nikah hüququ

### Yenidən nikaha daxil olmazdan əvvəl gözləmə müddəti

**Nurcan Bayraktar Türkiyəyə qarşı**

27 iyun 2023-cü il[5]

Bu iş boşanmış qadınların tibbi müayinədən keçməklə hamilə olmadıqlarını sübut edə bilmədikləri halda keçmiş ərlərindən başqa digər şəxslə nikaha daxil olmazdan əvvəl 300 günlük gözləmə müddətinə riayət etməkdən ibarət hüquqi öhdəliyi ilə əlaqədar idi. İş üzrə ərizəçi boşanma tarixindən başlayaraq 300 günlük gözləmə müddəti bitənə qədər yenidən ailə qura bilməsi üçün hamilə olub-olmadığının yoxlanmasından ötrü tibbi müayinədən keçmək tələbindən şikayət etmişdir (boşanma barədə yekun qərarın tarixi: 21 yanvar 2014-cü il). O, konkret olaraq qeyd etmişdir ki, boşandıqdan sonra yenidən evlənmək istəyən qadınlar üçün tibbi müayinədən keçərək hamilə olmadıqlarını sübut edə bilmədikləri halda Türkiyədə müəyyən edilmiş gözləmə müddəti cinsi mənsubiyyətə görə ayrı-seçkilikdir və onların nikah hüququnun pozulmasıdır. Ərizəçi həm də Türkiyə Konstitusiya Məhkəməsində icraatın uzun sürməsindən şikayət etmişdir.

Məhkəmə ərizəçiyə münasibətdə Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, 300 günlük gözləmə müddətinin tətbiq edilməsi və bu müddətin qısaldılması üçün ərizəçidən tibbi arayış təqdim etməsinin tələb olunması hər hansı təxirəsalınmaz sosial tələbata xidmət etmirdi, qarşıya qoyulan qanuni məqsədlərə mütənasib deyildi və ona haqq qazandıran yetərli və münasib əsaslar yox idi. Nəticədə ərizəçinin şəxsi həyatına hörmət hüququna edilən müdaxilə demokratik cəmiyyət üçün zəruri deyildi. Məhkəmə, həmçinin bu işdə Konvensiyanın **12-ci maddəsi** (nikah hüququ) **ilə əlaqəli şəkildə götürülmüş 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, ərizəçinin cins əlamətinə görə məruz qaldığı qeyri-bərabər rəftar nə zəruri idi, nə də obyektiv əsasa söykənirdi. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, boşanmış qadınların hamilə olmadıqlarını tibbi müayinə yolu ilə sübut edə bilmədikləri halda təkrar nikaha daxil olmamışdan əvvəl potensial hamiləliklə əlaqədar olaraq 300 günlük gözləmə müddətinə əməl etmələri tələbi cinsi əlamətə görə birbaşa ayrı-seçkilik forması təşkil edir və bu, doğulmamış uşağın valideynliyi ilə bağlı qeyri-müəyyənliyin qarşısını almaq məqsədi ilə əsaslandırıla bilməz. Bundan başqa, Məhkəmə qeyd etmişdir ki, bunun "qan qohumluğunun" qarşısının alınması (başqa sözlə, bioloji atalığın müəyyən edilməsi) məqsədimə xidmət etməsi müasir cəmiyyətdə köhnəlmiş ənənə sayılır. Məhkəmə bildirmişdir ki, hətta gözləmə müddətinin məqsədinin keçmiş ərin həmin dövrdə doğulan hər hansı uşağa münasibətdə atalıq ehtimalının saxlanması olduğunu fərz etsək belə, atalığın tanınması və müəyyən edilməsi üçün hazırkı hüquq sistemləri çərçivəsində digər hüquqi yolların mövcud olduğunu nəzərə alsaq, buna lüzum yox idi. Nəhayət, Məhkəmə Konstitusiya Məhkəməsində icraatın uzun sürmədiyini müəyyən etmiş və müvafiq olaraq, ərizəçinin Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndi** (ağlabatan müddətdə ədalətli məhkəmə araşdırması hüququ) üzrə şikayətini açıq-aydın əsassız sayaraq **qəbuledilməz** elan etmişdir.

[5] Bu qərar İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 44-cü maddəsinin 2-ci bəndində (qəti qərarlar) nəzərdə tutulan hallarda qüvvəyə minəcək.

# Mülkiyyətin müdafiəsi

## Ahıl şəxs üçün nəqliyyatda ödənişsiz gediş icazələri

**Michael Matthews Birləşmiş Krallığa qarşı**

15 iyun 2002-ci il (dostcasına həllə nail olunduğu üçün ərizə baxılmalı işlərin siyahısından çıxarılmışdır)

64 yaşında olan ərizəçi ahıl şəxslərə nəqliyyatda ödənişsiz gediş hüququ verən vəsiqə almaq üçün yerli poçt şöbəsinə müraciət etmişdir ki, bu sənəd ona Böyük London ərazisində ictimai nəqliyyatın əksəriyyətində pulsuz gediş-gəliş hüququ verəcəkdi. Onun müraciəti rədd edilmişdir. Çünki həmin dövrdə Britaniya qanunvericiliyinə görə, belə bir icazə yalnız yaşı 65 və ya yuxarı olan kişilərə verilə bilərdi, halbuki qadınlara bu hüquq, yerli icazə sisteminin şərtlərindən asılı olaraq 60 yaşa çatdıqda verilə bilərdi. Ərizəçi mülkiyyət hüququ ilə əlaqəli olan cinsi ayrı-seçkilik barəsində şikayət etmişdir.

Məhkəmə Birləşmiş Krallıq Hökuməti və ərizəçi arasında nail olunan **dostcasına həlli** (Konvensiyanın 39-cu maddəsi) rəsmən nəzərə almış və dostcasına həllin Konvensiyada və ya onun Protokollarında müəyyən edilmiş insan hüquqlarına hörmətə əsaslandığına əmin olduqdan sonra ərizəni baxılmalı işlərin **siyahısından çıxarmağa** qərar vermişdir.

## Qaçqın vəsiqəsi (və müvafiq olaraq məskunlaşma müavinəti) almaq hüququ

**Vrountou Kiprə qarşı**

13 oktyabr 2015-ci il

Ərizəçi səlahiyyətli orqanların ona qaçqın vəsiqəsi verməkdən imtina etməsindən şikayət etmiş və bildirmişdir ki, bu imtina onu bir sıra güzəştlərdən, o cümlədən mənzil yardımından məhrum etmişdir. O, həmçinin iddia etmişdir ki, məcburi köçkün kişinin deyil, məcburi köçkün qadının övladı olduğuna görə ona qaçqın vəsiqəsi verməkdən imtina edilməsi cinsi mənsubiyyətə görə ayrı-seçkilikdir və məhkəmələr də daxil olmaqla Kiprdə heç bir dövlət orqanı onun şikayətini mahiyyəti üzrə araşdırmayıb. Ərizəçi Avropa Məhkəməsinə şikayət ərizəsini verdikdən sonra müharibə qurbanları və Türkiyə silahlı qüvvələri tərəfindən tutulmuş ərazilərdən köçürülmüş və ya Milli Qvardiyanın ehtiyaclarını ödəmək üçün təxliyə olunmuş şəxslər üçün 1974-cü ildə tətbiq edilmiş sxem dəyişdirildi və beləliklə 2013-cü ildən etibarən məcburi köçkün qadınların övladları da məcburi köçkün kişilərin övladları ilə eyni şərtlərlə mənzil yardımı almaq hüququ əldə etdilər.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. İlk öncə müəyyən edilmişdir ki, qaçqın vəsiqəsi (və müvafiq olaraq, mənzil yardımı) almaq hüququndan istifadə etməkdə məcburi köçkün qadınların övladlarına nisbətən məcburi köçkün kişilərin övladları barəsində daha güzəştli davranış olduğu səbəbilə cinsi mənsubiyyətə görə fərqli rəftar baş vermişdir. Belə fərqli rəftar üçün ağlabatan və obyektiv əsas olub-olmadığına gəlincə, Hökumət tərəfindən irəli sürülən başlıca arqument ondan ibarət idi ki, bu sxem tətbiq edildiyi dövrdə Kiprdə qadın və kişilər arasında sosial-iqtisadi fərqlər mövcud idi. Lakin Məhkəmə xatırlatmışdır ki, bu cür "ənənələrə, ümumi fərziyyələrə və ya hökm sürən sosial münasibətlərə" istinad cinsi mənsubiyyətə əsaslanan fərqli rəftara haqq qazandırmaq üçün yetərli əsas hesab olunmur. 1974-cü ildə mövcud olmuş sxemin məcburi köçkün qadınların uşaqlarına şamil olunması üçün müddəti və vasitələri seçməkdə dövlətin qiymətləndirmə sərbəstliyinə malik olduğu barədə iddiaya gəlincə, Məhkəmə qeyd etmişdir ki, bu sxem məcburi köçkün qadınların övladlarını təxminən qırx ildir ki, yardımdan kənarlaşdırmışdır. Yalnız cinsi mənsubiyyətə əsaslanan belə fərqli rəftara yalnız büdcə mülahizələri ilə haqq qazandırmaq olmaz, xüsusən də nəzərə alsaq ki, 1974 və 2013-cü illər arasında mövcud olmuş sxemin əhatə dairəsinin ardıcıl olaraq genişləndirilməsi müəyyən maliyyə nəticələri doğurmuşdur.

Bundan əlavə, həmin sxemin bu qədər uzun müddət qüvvədə olması və ailədəki ənənəvi rolların yalnız 1974-cü ildə başa düşüldüyü kimi qalmaqda davam etməsi dövlətin bu sahədəki qiymətləndirmə sərbəstliyinin hüdudlarını aşması demək idi. Uzun müddət davam etmiş bu cür fərqli rəftara haqq qazandırmaq üçün çox ciddi əsaslar tələb olunurdu. Amma fərqli rəftar üçün heç bir obyektiv və ağlabatan əsas olmadığı üçün təqdim edilmədi. Məhkəmə, həmçinin ayrı-seçkilik xarakteri daşıyan həmin sxemdən şikayət etmək üçün həmin dövrdə ərizəçinin sərəncamında səmərəli hüquqi müdafiə vasitələrinin olmaması səbəbilə **Konvensiyanın 13-cü maddəsinin** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulduğunu** müəyyən etmişdir.

## Sosial təminat hüququ

**Stec Birləşmiş Krallığa qarşı**

12 aprel 2006-cı il (Böyük Palata)

Bu işdə iki kişi və iki qadın ərizəçi şikayət etmişdilər ki, azaldılmış əmək haqlarının ödənişini (REA - reduced earnings allowance) almaq hüququnun[2] dövlətin müəyyən etdiyi pensiya yaşı ilə əlaqələndirilməsini nəzərdə tutan dəyişikliklər nəticəsində həmin hüququ itirmələri səbəbindən cinsi ayrı-seçkiliyə məruz qalıblar.[3] Bu, bütün ərizəçilərin gəlirlərinin müxtəlif formada azalması ilə nəticələnmişdi, halbuki onlar əks cinsin nümayəndəsi olsa və bununla da başqa pensiya yaşı kateqoriyasına aid edilsə idilər, bu haldan qaçmaq mümkün olardı.
Məhkəmə qərara almışdır ki, **Konvensiyanın 1 saylı Protokolun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**. Belə ki, Birləşmiş Krallıqda kişilərlə qadınlar arasında dövlət tərəfindən müəyyən edilən pensiya yaşında fərq ilkin dövrlərdə qadınların əlverişsiz iqtisadi vəziyyətini düzəltmək məqsədi daşıyırdı. Sosial və iqtisadi dəyişikliklər nəticəsində qadınlara münasibətdə xüsusi rəftara ehtiyac aradan qalxdıqdan sonra daha bu fərqin obyektiv və ağlabatan əsası qalmamışdı. Yaranmış bərabərsizliyi aradan qaldırmaq üçün Birləşmiş Krallıq Hökumətinin dəqiq müddətləri və vasitələri müəyyən edən qərarları açıq-aydın əsassız deyildi. Eynilə, sosial təminat vəsaiti əmək fəaliyyəti dövründə şəxsin iş qabiliyyətinin azalmasını kompensasiya etmək üçün nəzərdə tutulduğu üçün REA hüququnun pensiya sistemi ilə əlaqələndirilməsi barədə qərar ağlabatan və obyektiv əsasa malik idi.

**Barrow Birləşmiş Krallığa qarşı, Pearson Birləşmiş Krallığa qarşı və Walker Birləşmiş Krallığa qarşı**

22 avqust 2006-cı il

Birinci işdəki ərizəçi xanım şikayət etmişdir ki, 60 yaşına çatdıqda ona əlillik müavinətinin verilməsi dayandırılıb, halbuki eyni vəzifədə çalışmış kişi bu müavinəti 65 yaşına qədər ala bilərdi. Baxmayaraq ki, qadınlar dövlətin təyin etdiyi pensiyanı almaq üçün 60 yaşında müraciət edə bilərdilər və işləməyə davam etdikləri təqdirdə milli sığorta haqlarını ödəməkdən azad edilirdilər, ikinci işdəki ərizəçi şikayət etmişdir ki, 65 yaşına qədər dövlət pensiyası ala bilməyəcək, üçüncü işdəki ərizəçi isə şikayət etmişdir ki, 60 yaşına çatdıqdan sonra milli sığorta haqlarını ödəmək məcburiyyətindədir.
Məhkəmə qərara almışdır ki, üç işin heç birində Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**.
Məhkəmə konkret olaraq təsdiqləmişdir ki, şikayət edilən ayrı- seçkilik Birləşmiş Krallıqda yaşa görə əmək pensiyası almaq hüququnun yaranmasından ötrü kişi və qadınlar üçün müəyyən edilmiş yaş fərqindən qaynaqlanır. Bu fərq üçün ilkin olaraq gətirilən əsası (cinslər arasında maliyyə bərabərsizliyini aradan qaldırmaq), qadınların iş həyatında dəyişikliklərin xarakter etibarilə yavaş-yavaş baş verməsini və Avropa dövlətləri arasında vahid standartın olmadığını, xüsusən də bu tədbirlərin qadınlar üçün və bütövlükdə iqtisadiyyat üçün mühüm əhəmiyyətli təsirləri olacağını nəzərə alaraq Məhkəmə bu

qənaətə gəlmişdir ki, vahid pensiyanın tətbiqi istiqamətində tədbirlərə daha erkən başladığına, yaxud islahatları yavaş-yavaş və mərhələli şəkildə həyata keçirdiyinə görə Birləşmiş Krallığı tənqid etmək düzgün olmazdı.

## İşçilərin tibbi sığortası

**Jurčić Xorvatiyaya qarşı**

4 fevral 2021-cü il[4]

Bu iş hamiləlik dövründə ərizəçiyə tibbi sığortanın şamil edilməsindən imtina ilə əlaqədar idi. Səlahiyyətli orqanlar iddia edirdilər ki, hamiləliyi barədə ərizəçinin xəbər tutmasından az öncə bağlanmış onun əmək müqaviləsi etibarsızdır və ona ekstrakorporal (süni) mayalanma tətbiq edilən dövrdə o, əmək fəaliyyətinə başlamalı deyildi. Ərizəçi tibbi sığortasının ləğv edilməsindən şikayət edərək bildirmişdir ki, bu, ekstrakorporal mayalanma əməliyyatı keçirmiş qadın olaraq məruz qaldığı ayrı-seçkiliyin nəticəsidir.
Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmənin gəldiyi qənaətə görə, Xorvatiyanın səlahiyyətli orqanları ərizəçi tərəfindən hər hansı fırıldaqçılıq baş verdiyini sübut etməmişlər, hamilə qadınların iş axtarmalı olmadığını nəzərdə tutmuşlar və beləliklə də ərizəçiyə qarşı ayrı-seçkiliyə yol vermişlər. Məhkəmə, həmçinin xəbərdarlıq etmişdir ki, ərizəçinin işində səlahiyyətli orqanlar tərəfindən yol verilmiş bu gender stereotipləri Avropa Şurasına üzv dövlətlərin əsas hədəflərindən biri olan real gender bərabərliyinə nail olmaq yolunda ciddi maneə yaradır. Hamilə qadını hamilə olması səbəbindən işə götürməkdən və ya onun əmək fəaliyyəti ilə bağlı müavinət hüququnu tanımaqdan imtina etmənin cins əlamətinə görə birbaşa ayrı-seçkiliyə bərabər olduğunu vurğulayan Məhkəmə bu nəticəyə gəlmişdir ki, ərizəçiyə qarşı fərqli rəftarın heç bir obyektiv əsası olmamışdır və bu da onun Konvensiyada nəzərdə tutulmuş hüquqlarının pozulmasına gətirib çıxarmışdır.

## Gəlir əldə etmək hüququndan məhrum edilmə

**Dimici Türkiyəyə qarşı**

5 iyul 2022-ci il

Bu iş Örfioğlu Fondu (1536-cı ildə Osmanlı dövründə Diyarbəkirdə yaradılıb) tərəfindən əlavə gəlirlərin bölüşdürülməsini tənzimləyən şərtlərlə əlaqədar idi. Belə ki, həmin şərtlər gəlir əldə etmək hüququ olan şəxslərə qarşı cinsi mənsubiyyətinə görə fərqli rəftar edilməsini nəzərdə tuturdu. Fondun 16-cı əsrə aid təsis sənədinə əsasən, Fondun izafi gəlirindən yalnız kişi cinsinə mənsub övladlara pul ödənilə bilərdi, nəticədə birinci ərizəçinin mərhum arvadı (2018-ci ildə vəfat edib) və digər üç ərizəçinin anası həmin gəliri əldə etmək hüququndan məhrum olmuşdu. Ərizəçilər cinsi əlamətə görə ayrı-seçkiliyin baş verdiyini bildirmişlər.

[4] Bu qərar İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 44-cü maddəsinin 2-ci bəndində (qəti qərarlar) nəzərdə tutulan hallarda qüvvəyə minəcək.

Məhkəmə Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə əlaqəli şəkildə götürülmüş Konvensiyanın 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, Türkiyənin səlahiyyətli orqanları mərhumu (ərizəçilər mərhumun varisləri idi) cinsi əlamətə görə ayrı-seçkilikdən qorumaq öhdəliklərini lazımınca yerinə yetirməmişlər. Məhkəmə xüsusilə qeyd etmişdir ki, mərhumun Örfioğlu Fondunun izafi gəlirini almaq hüququ rədd edilmişdir, halbuki o, kişi olsaydı, bu gəliri əldə edə bilərdi.
Beləliklə, o, cinsi əlamətə görə fərqli rəftara məruz qalmışdır. Məhkəmə, həmçinin bildirmişdir ki, daxili məhkəmələr təsisçinin Fondun təsis sənədində ifadə olunmuş istəklərini dövlət siyasəti qaydaları əsasında araşdırmaq istəmədən sadəcə olaraq bu istəkləri müəyyən etmiş və sonra tətbiq etmişlər. Belə görünür ki, onlar təsisçinin istəklərinin Konvensiyaya, Konstitusiyaya və ya qanunvericiliyə uyğun olub-olmadığını qiymətləndirmək üçün heç bir cəhd göstərməmişlər. Halbuki ayrı-seçkiliyə yol verilməməsi və kişilər və qadınlar arasında bərabərlik prinsipi ilə bağlı məsələ müvafiq müddəalarda açıq-aydın ortaya qoyulur.

## Mənzil (yaşayış yeri) müavinəti

### J.D. və A Birləşmiş Krallığa qarşı (Ərizələr № 32949/17 və 34614/17)

24 oktyabr 2019-cu il

Bu işdə ikinci ərizəçi yüksək məişət zorakılığı riski ilə üzləşdiyinə görə "Sığınacaq Plan"ına daxil edilmişdir ki, bu da onun əmlakında bəzi dəyişikliklərin edilməsi demək idi (o cümlədən üç yataq otağı olan evin çardağında onun özü və oğlu üçün "çaxnaşma otağı" quraşdırılmışdı). O bildirmişdir ki, sosial mənzil sektorunda mənzil (yaşayış yeri) müavinəti ilə bağlı yeni qaydaların (qeyri-rəsmi olaraq "yataq otağı vergisi" adı ilə tanınır) tətbiqi gender əsaslı zorakılığın qurbanı qismində ona qarşı ayrı-seçkilikdir.
Məhkəmə qərara almışdır ki, ikinci ərizəçiyə münasibətdə Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, tənzimləyici qaydanın insanları köçməyə vadar etmək məqsədini daşıması gender əsaslı zorakılıq qurbanlarının öz evlərində qalmasına imkan yaratmaq məqsədi daşıyan "Sığınacaq planı" ilə ziddiyyət təşkil edir. Beləliklə, ikinci ərizəçiyə qarşı yeni mənzil müavinəti qaydalarının şamil olunduğu digər şəxslərlə eyni qaydada rəftar edilməsi qeyri-mütənasib xarakter daşıyırdı, çünki qarşıya qoyulan qanuni məqsədə uyğun deyildi. Üstəlik, Birləşmiş Krallıq Hökuməti bu planın məqsədinin məişət zorakılığı qurbanlarının evlərində qalmasına imkan yaratmaq məqsədindən üstün tutulmasını əsaslandırmaq üçün heç bir ciddi səbəb göstərməmişdi.

## Sosial təminat sisteminə ödənişlər etmək öhdəliyi

### Van Raalte Niderlanda qarşı

21 fevral 1997-ci il

Heç vaxt evlənməyən və övladı olmayan ərizəçi şikayət etmişdir ki, "Uşaqlara qulluq üçün ümumi müavinətlər haqqında" Qanuna əsasən, ödənişlər etmək öhdəliyi ilə əlaqədar olaraq ayrı-seçkilik xarakteri daşıyan rəftarın qurbanıdır. O bildirmişdir ki, yaşı 45-dən yuxarı olan nikahsız və övladsız kişi olaraq ondan "Uşaqlara qulluq üçün ümumi müavinətlər haqqında" Qanuna müvafiq şəkildə ödənişlər tutulması cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkilik təşkil edir, belə ki, barəsində şikayət edilən tədbir qüvvədə olduğu zaman həmin yaşda olan nikahsız və övladsız qadınlardan analoji ödənişlər tələb edilməyib.
Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur** və bu qənaətə gəlmişdir ki, müəyyən yaşdakı qadınların övladsızlıq hisslərinə mərhəmətlə yanaşmaq istəyinin qanuni məqsəd daşıyıb-daşımamasından asılı olmayaraq, hazırki işdə belə məqsəd cinsi mənsubiyyətə əsaslanan fərqli rəftara haqq qazandıra bilməz.

Məhkəmə, xüsusilə qeyd etmişdir ki, iştirakçı dövlətlər bu cür ödəniş öhdəliklərindən azadetmə hallarının tətbiqi məsələsində Konvensiyaya əsasən müəyyən qiymətləndirmə sərbəstliyinə malik olsalar da, 14-cü maddə hər hansı belə tədbirin prinsipcə həm kişilərə, həm də qadınlara bərabər şəkildə tətbiqini tələb edir. Əks halda, fərqli rəftarı əsaslandırmaq üçün ciddi səbəblər gətirilməlidir.
Hazırki işdə Məhkəmə bu cür səbəblərin mövcudluğuna əmin olmamışdır. Bu kontekstdə nəzərə almaq lazımdır ki, yaşı 45-dən yuxarı olan qadınların uşaq dünyaya gətirməsi mümkün olduğu kimi, yaşı 45 və ya daha az olan kişilər arasında da övlad dünyaya gətirə bilməyənlər ola bilər. Məhkəmə, həmçinin qeyd etmişdir ki, yaşı 45 və ya daha yuxarı olan nikahsız və övladsız qadın sözügedən qanuna əsasən müavinət ala bilərdi; məsələn, o, artıq əvvəlki nikahdan övladı olan kişi ilə evlənə bilərdi. Bundan əlavə, nikahsız və övladsız qadınlardan uşaqlara qulluq üçün müavinətlərin tutulmasının onların üzərinə haqsız emosional yük qoya biləcəyinə dair arqument nikahsız və övladsız kişilərə və ya övladsız cütlüklərə eyni dərəcədə şamil edilə bilər.

## Pensiya sxemi

***Nikahda olan şəxsin yaşa görə pensiyası***

**Wessels-Bergervoet Niderlanda qarşı**

4 iyun 2002-ci il

Ərizəçi və əri bütün həyatları boyu Niderlandda yaşamışlar. Ərizəçinin ərinə 1 avqust 1984-cü ildən etibarən "Yaşa görə pensiya haqqında ümumi Qanun"a (Algemene Ouderdomswet - "AOW") uyğun olaraq, nikahda olan şəxs üçün yaşa görə pensiya təyin edilmişdir. Lakin o, 19 il müddətində Almaniyada işlədiyinə və Almaniya sosial təminat qanunvericiliyinə əsasən, sığorta haqlarını orada ödədiyinə görə pensiya məbləği 38% azaldılmışdır. Bu qərardan heç bir şikayət verilməmişdir. 1 mart 1989-cu ildən etibarən AOW-a uyğun olaraq, ərizəçiyə ərinin pensiyası ilə eyni əsaslarla pensiya təyin edilmiş və onun məbləği 38% azaldılmışdır. O, bu qərardan şikayət vermiş, lakin cəhdi uğursuz olmuşdur. Ərizəçi bildirmişdir ki, o, yalnız ərinin sığorta haqlarını ödəmədiyi dövrdə sığorta haqlarını ödəməyib və AOW-a uyğun olaraq, pensiyasının azaldılması cinsi mənsubiyyətə görə ayrı-seçkilik təşkil edir, belə ki, analoji vəziyyətdə olan evli kişilər üçün ekvivalent qayda mövcud deyil.
Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmənin gəldiyi qənaətə görə, AOW-a müvafiq olaraq, güzəşt hüququnun tətbiqində evli kişilərlə müqayisədə evli qadınlara qarşı fərqli rəftar edilmiş və ərizəçinin qurban qismində məruz qaldığı bu rəftarın heç bir "obyektiv və ağlabatan əsası" olmamışdır. Məhkəmə xüsusilə qeyd etmişdir ki, fərqli rəftarın əsaslı hesab oluna biləcəyini araşdırarkən yalnız müvafiq müddəaların qəbul edildiyi vaxtda daşıdığı məqsədi deyil, konkret işdə həmin rəftarın təsirlərini də nəzərə alır. Hazırki işdə ərizəçi 1 mart 1989-cu ildən etibarən eyni vəziyyətdə olan evli kişinin alacağı pensiyanın məbləğindən 38% az olan yaşa görə pensiya məbləği alıb. Başqa sözlə, əvvəlki qanunvericilik normalarına xas olan qeyri-bərabərlik 1989-cu ildə reallaşıb. Belə ki, o dövrdə cəmiyyətdə hökm sürən yanaşmaları nəzərə alsaq, müvafiq qanunvericilik normalarının daşıdığı məqsəd daha dəstəklənə bilməzdi. Bununla əlaqədar olaraq, Məhkəmə onu da nəzərə almışdır ki, 1985-ci ildə müvafiq normalar kişilər və qadınlar arasında daha müasir bərabərlik standartlarına uyğunlaşdırılmaq üçün dəyişdirildikdə, əvvəlki qanunvericilik normalarının ayrı-seçkilik xarakterli təsirinin aradan qaldırılması üçün heç bir tədbir görülməmişdir.

***Pensiya yaşı***

**Andrle Çex Respublikasına qarşı**

17 fevral 2011-i il

Bu iş Çex Respublikasındakı cari pensiya sistemi ilə əlaqədar idi. Belə ki, həmin sistemə əsasən uşaqlara qulluq edən qadın və kişilər müxtəlif yaşlarda pensiya almaq hüququ əldə edirdilər. Boşandıqdan sonra ərizəçi iki azyaşlı övladı üzərində qəyyumluq əldə etmişdir. O, 2003-cü ildə 57 yaşında pensiyaya çıxmaq istəsə də, müraciəti rədd edilərək belə əsas gətirilmişdir ki, o, həmin dövrdə kişilər üçün müəyyən edilmiş pensiya yaşı olan 60 yaşına çatmayıb. Qadınlar üçün pensiya yaşı isə böyütdükləri uşaqların sayından asılı olaraq, 57 və ya daha aşağı idi.

Ərizəçi pensiya yaşının hesablanmasında iki övlad böyütməsi faktının nəzərə alınmalı olduğunu əsas gətirərək apellyasiya şikayəti vermişdir, lakin Konstitusiya Məhkəməsi ayrıca icraatda müvafiq qanunvericiliyin Konstitusiya ilə ziddiyyət təşkil etmədiyi barədə qərar çıxardıqdan sonra onun apellyasiya şikayəti rədd edilmişdir. Ərizəçi konkret olaraq şikayət etmişdir ki, onun vəziyyətində olan qadının pensiya ala biləcəyi yaşda ona pensiya verilməsindən imtina edilmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır** və bu qənaətə gəlmişdir ki, Çex Respublikasının pensiya sistemi ilə əlaqədar mövqeyi ağlabatan və obyektiv əsasa malikdir və ölkədəki sosial və iqtisadi dəyişikliklər qadınlara münasibətdə xüsusi rəftar edilməsi zərurətini aradan qaldırana qədər həmin mövqeyin ağlabatan və obyektiv əsası olacaqdır. Məhkəmə konkret olaraq hesab etmişdir ki, Çex Respublikasında 1964-cü ildə "Sosial təminat haqqında" Qanuna əsasən, qəbul edilmiş Çex Respublikasında qadınlara pensiya hüququ verən yaş həddinin endirilməsi konkret tarixi şərtlərə əsaslanıb və o vaxtkı sosialist Çexoslovakiyasının reallıqlarını əks etdirib. Bu tədbir o dövrdə qurulmuş (və bu gün də davam edən) ailə modeli çərçivəsində qadınların üzləşdiyi bərabərsizliyi və çətinlikləri kompensasiya etmək üçün nəzərdə tutulduğundan "qanuni məqsəd" daşıyırdı. Belə ki, onlar eyni vaxtda həm tam iş günü ilə işləməli, həm də uşaqların və ev təsərrüfatının qayğısına qalmalı idilər. Həqiqətən, qadınlara təyin edilən maaş və pensiyaların məbləği kişilərlə müqayisədə adətən daha az idi. Məhkəmə onu da vurğulamışdır ki, milli dövlət orqanları iqtisadi və sosial siyasətlərlə əlaqədar olan bu cür kompleks məsələyə dair qərar verməkdə daha əlverişli vəziyyətdədirlər və bu məsələ bir çox ölkədaxili dəyişkən kəmiyyətlərdən və bilavasitə müvafiq cəmiyyət barəsində məlumatlılıqdan asılıdır.

***Ailə başçısını itirməyə görə pensiya***

**Zeman Avstriyaya qarşı**

29 iyun 2006-cı il

Ərizəçi "Pensiyalar haqqında" və "Müavinətlər haqqında" Qanunlarda edilmiş dəyişikliklərə əsasən, ailə başçısını itirməyə görə aldığı pensiya məbləğinin azaldılmasından şikayət etmişdir. Bu qanunlara görə, dul kişilər vəfat etmiş arvadlarının 1995-ci ilin yanvarına qədər aldığı pensiyanın 40%-ni, dul qadınlar isə vəfat etmiş ərlərinin aldığı pensiyanın 60%-ni almaq hüququna malik idilər. Ərizəçi şikayət verərək bildirmişdir ki, o, analoji vəziyyətdə olan qadın olsa idi, pensiyanın 60%-ni almaq hüququna malik olacaqdı. Lakin onun şikayəti təmin edilməmişdir.

Məhkəmə qərara almışdır ki, ərizəçinin işində Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur.** Məhkəmənin gəldiyi qənaətə görə, 1995-ci ilədək ailə başçısını itirməyə görə pensiya hüququ əldə etmək məsələsində kişilərlə qadınlara münasibətdə fərqli rəftarın heç bir "obyektiv və ağlabatan əsası" yoxdur.

## Dul qadınlar üçün nəzərdə tutulan müavinətlərin dul kişilər üçün nəzərdə tutulmaması

**Cornwell Birləşmiş Krallığa qarşı** və **Leary Birləşmiş Krallığa qarşı**

25 aprel 2000-ci il (dostcasına həllə nail olunduğu üçün ərizə baxılmalı işlərin siyahısından çıxarılmışdır)

Hər iki ərizəçi şikayət etmişlər ki, Britaniyanın sosial təminat qanunvericiliyinə əsasən, dul qadınlar üçün nəzərdə tutulan müavinətlərin dul kişilər üçün nəzərdə tutulmaması onlara qarşı cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkilikdir.

Məhkəmə Birləşmiş Krallıq Hökuməti və ərizəçilər arasında nail olunan **dostcasına həlli** (Konvensiyanın 39-cu maddəsi) rəsmən nəzərə almış və dostcasına həllin Konvensiyada və ya onun Protokollarında müəyyən edilmiş insan hüquqlarına hörmətə əsaslandığına əmin olduqdan sonra ərizəni baxılmalı işlərin **siyahısından çıxarmağa** qərar vermişdir.

*Həmçinin bax:* ***Crossland Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 29 may 2000-ci il tarixli qərar; ***Atkinson Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 8 aprel 2003-cü il tarixli qərar; ***Owens Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 13 yanvar 2004-cü il tarixli qərar.

**Sawden Birləşmiş Krallığa qarşı**

12 mart 2002-ci il (ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə qərar)

Ərizəçinin arvadı 1997-ci ilin avqustunda vəfat etmiş və ərizəçi onun əmlakının idarəçisi olmuşdur. Bir ay sonra ərizəçi "Sosial təminat və müavinətlər haqqında" 1992-ci il tarixli Qanuna əsasən, dul qadına və dul anaya təyin edilən vəsaitin ona da təyin edilməsi üçün müraciət etmişdir. Ona məlumat verilmişdir ki, dul qadınlara müavinətlərin ödənilməsini tənzimləyən qaydalar yalnız qadınlara aid olduğu üçün tələbi əsassızdır. Ərizəçi bu qərardan şikayət vermiş, lakin cəhdi uğursuz olmuşdur. "Sosial təminat sahəsində islahat və pensiyalar haqqında" 1999-cu il tarixli Qanun 2001-ci ilin aprelində qüvvəyə minmiş və ailə başçısını itirməyə görə pensiyalar həm qadınlar, həm də kişilər üçün nəzərdə tutulmuşdur. Məhkəmədəki icraatda ərizəçi şikayət etmişdir ki, Britanıyanın sosial təminat və vergi qanunvericiliyi onu cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qoymuşdur.

Məhkəmə Birləşmiş Krallıq Hökuməti və ərizəçilər arasında nail olunan **dostcasına həlli** (Konvensiyanın 39-cu maddəsi) rəsmən nəzərə almış və dostcasına həllin Konvensiyada və ya onun Protokollarında müəyyən edilmiş insan hüquqlarına hörmətə əsaslandığına əmin olduqdan sonra ərizəni baxılmalı işlərin **siyahısından çıxarmağa** qərar vermişdir.

*Həmçinin bax:* ***Loffelman Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 26 mart 2002-ci il tarixli qərar; ***Downie Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 21 may 2002-ci il tarixli qərar; ***Rice Birləşmiş Krallığa qarşı***, ərizənin baxılmalı işlərin siyahısından çıxarılması barədə 1 oktyabr 2002-ci il tarixli qərar.

**Willis Birləşmiş Krallığa qarşı**

11 iyun 2002-ci il

Ərizəçi dul qadınlara və dul analara təyin edilən müavinətin ona verilməsindən imtina edilməsi barədə qərarın qəbulu və arvadının yaşadığı dövrdə sosial sığorta haqlarını ödəməsinə baxmayaraq, gələcəkdə arvadının pensiyasını almaq hüququna malik olmaması səbəbindən özünün və mərhum arvadının ayrı-seçkiliyə məruz qalmasından şikayət etmişdir. O, bildirmişdir ki, Britaniyanın sosial təminat qanunvericiliyi onu cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyə məruz qoymuşdur.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur** və bu qənaətə gəlmişdir ki, dul qadınlara və dul analara təyin edilən müavinətləri almaq hüququnun verilməsində fərqli rəftarın obyektiv və ağlabatan əsası yoxdur. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, ərizəçinin hər iki müavinətin ödənilməsi üçün müxtəlif qanuni şərtlərə uyğun gəlmədiyinə dair dəlillər təqdim edilməmişdir. Sözügedən müavinətlərin təyin olunmasından imtina edilməsinin yeganə səbəbi onun kişi olması idi. Eyni vəziyyətdə olan qadın daxili qanunvericiliyə uyğun olaraq, onların hər ikisini almaq hüququna malik olardı. Ərizəçinin dul qadınlar üçün nəzərdə tutulan pensiyanı almaq hüququnun olmamasına gəldikdə, Məhkəmə əlavə olaraq bildirmişdir ki, hətta ərizəçi qadın olsa idi belə, 1992-ci il tarixli qanunda göstərilən şərtlərlə dul qadınlar üçün pensiyanı almaq hüququna malik olmayacaqdı. Həqiqətən də ərizəçinin vəziyyətində olan dul qadın ən azı 2006-cı ilə qədər pensiya almaq hüququ əldə etməyəcəkdi və digər qanunvericilik şərtlərinin qüvvədə olması səbəbindən həmin hüququ heç vaxt qazanmayacağı ehtimal olunur. Məsələn, bu hüququnun hər hansı başqa yolla yaranacağı anadək yenidən evlənməməli idi.

Ona görə də Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, analoji vəziyyətdə olan qadınla müqayisədə ərizəçi ilə fərqli rəftar edilmədiyinə görə onun pensiya almaq hüququ ilə bağlı Konvensiyanın 14-cü maddəsinə zidd olan ayrı-seçkilik məsələsi meydana çıxmır. Bu səbəbdən, Məhkəmə ərizəçiyə dul qadın üçün nəzərdə tutulmuş pensiyanın verilməməsi məsələsində Konvensiyanın **1 saylı Protokolun 1-ci maddəsi ilə birlikdə 14-cü maddəsinin pozulmadığını** müəyyən etmişdir.

**Hobbs, Richard, Walsh və Geen Birləşmiş Krallığa qarşı**

14 noyabr 2006-cı il

Dörd ərizəçinin hamısı 90-cı illərin ortalarında və ya sonlarında dul qalmışdı. Onlar konkret olaraq Birləşmiş Krallığın səlahiyyətli orqanlarının onlara dul qalmağa görə müavinət və ya onun ekvivalentini verməkdən onların cinsi mənsubiyyətinə görə imtina etməsindən şikayət etmişdilər İkinci, üçüncü və dördüncü ərizəçilər əlavə olaraq dul qadın üçün nəzərdə tutulan pensiyasının onlara verilməməsindən, bundan öncə isə dul qadınlar və dul analar üçün müavinətinin verilməməsindən şikayət etmişdilər.

Ərizəçilərin birinci şikayəti üzrə Məhkəmə ərizəçilərə müavinət verilməsindən imtina edildiyi dövrdə dul qadınlar üçün vergi güzəşti məsələsində kişilərə və qadınlara qarşı fərqli rəftarın ağlabatan və obyektiv əsasının olmadığını hesab etmiş və qərara almışdır ki, birinci, ikinci və üçüncü ərizəçilərə münasibətdə Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmuşdur**. Məhkəmə, həmçinin qeyd etmişdir ki, dul qadına ödəniş və dul anaya müavinət məsələsinə dair tələblərlə bağlı tərəflər dostcasına həllə nail olmuşlar və ərizədəki şikayətlərin bu hissəsini baxılmalı işlərin **siyahısından çıxarmışdır**. Nəhayət, Məhkəmə, ikinci və üçüncü ərizəçilərin dul qadınlar üçün nəzərdə tutulan pensiyanı almaq tələbləri ilə bağlı heç bir qanun pozuntusu aşkar etməmiş, dördüncü ərizəçinin dul qadınlar üçün nəzərdə tutulan pensiyanı almaq tələbinə baxılmasını isə təxirə salmışdır.

*Həmçinin bax:* ***Cross Birləşmiş Krallığa qarşı***, 9 oktyabr 2007-ci il tarixli qərar; ***Anderson Birləşmiş Krallığa qarşı*** və ***Crilly Birləşmiş Krallığa qarşı***, 20 noyabr 2007-ci il tarixli qərar; ***Geen Anderson Birləşmiş Krallığa qarşı***, 4 dekabr 2007-ci il tarixli qərar; ***Anderson Birləşmiş Krallığa qarşı*** and ***Anderson Birləşmiş Krallığa qarşı***, 22 yanvar 2008-ci il tarixli qərar; ***Szulc Anderson Birləşmiş Krallığa qarşı***, 8 aprel 2008-ci il tarixli qərar; ***Smith Anderson Birləşmiş Krallığa qarşı***, 20 may 2008-ci il tarixli qərar.

**Runkee və White Birləşmiş Krallığa qarşı**

10 may 2007-ci il

Hər iki ərizəçi şikayət etmişlər ki, yaxınlarını itirmiş dul qadınlardan fərqli olaraq, onlar kişi olaraq, dul qadınlar üçün nəzərdə tutulan müavinətlərin ekvivalentini (dul qadınlar üçün pensiyanı və dul qadınlar üçün ödənişi) almaq hüququna malik deyillər.

Məhkəmə qeyd etmişdir ki, dul qadınlar üçün nəzərdə tutulan pensiya ilk gündən 9 aprel 2001-ci ildə ləğv edildiyi anadək (ərləri bu tarixdən əvvəl vəfat etmiş qadınlar istisna olmaqla) bir qrup kimi ahıl dul qadınlarla əhalinin qalan hissəsi arasındakı bərabərsizliyi aradan qaldırmaq məqsədi daşıdığı üçün bu məsələdə fərqli rəftarın ağlabatan və obyektiv əsası olmuşdur. Qadınların iş həyatında dəyişikliklərin xarakter etibarilə yavaş-yavaş baş verməsini və ahıl dul qadınların sinif olaraq yardıma ehtiyacının olmayacağı dəqiq tarixi göstərməyin mümkünsüzlüyünü nəzərə alaraq Məhkəmə Birləşmiş Krallığı bu növ pensiyanı daha öncə ləğv etmədiyinə görə tənqid etməmişdir. Buradan belə nəticə çıxır ki, dul qadınlar üçün nəzərdə tutulan pensiyanın ərizəçilərə təyin edilməməsi məsələsində Konvensiyanın **1 saylı Protokolunun 1-ci maddəsi** (mülkiyyətin müdafiəsi) **ilə birlikdə 14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmamışdır**. Lakin Konvensiyaya əsasən, eyni məsələnin qaldırıldığı oxşar işlərdə olduğu kimi (Bax yuxarıda: *Willis Birləşmiş Krallığa qarşı*), ərizəçilərin dul qadın üçün nəzərdə tutulan ödənişi almaq hüququna malik olmaması məsələsində Məhkəmə **1 saylı Protokolun 1-ci maddəsi ilə birlikdə** Konvensiyanın **14-cü maddəsinin pozulduğunu** müəyyən etmişdir.

*Həmçinin bax:* ***Fallon Birləşmiş Krallığa qarşı*** və ***Woods Birləşmiş Krallığa qarşı***, 20 noyabr 2007-ci il tarixli qərarlar; ***Williams Birləşmiş Krallığa qarşı***, 8 yanvar 2008-ci il tarixli qərar; ***McNamee Birləşmiş Krallığa qarşı***, 27 mart 2008-ci il tarixli qərar; ***Cummins Birləşmiş Krallığa qarşı***, 1 aprel 2008-ci il tarixli qərar; ***Szulc Birləşmiş Krallığa qarşı***, 8 aprel 2008-ci il tarixli qərar.

## Azad seçki hüququ

### Nümayəndəli orqanlara seçilmək üçün namizədlərin siyahıları

**Staatkundig Gereformeerde Partij Niderlanda qarşı**

10 iyul 2012-ci il (ərizənin qəbuledilənliyinə dair qərar)

Nümayəndəli orqanlara seçkilər üçün namizədlərin siyahılarına qadınların daxil edilməsinə icazə verilməsi üçün bir neçə assosiasiyanın və təşkilatın ərizəçiyə qarşı mülki iş qaldırması və ərizəçinin üzərinə bu vəzifənin qoyulması üçün tədbirlər görülməsini dövlətdən tələb etməsi nəticəsində regional məhkəmənin qərar qəbul etməsindən sonra ərizəçi (yüksək dərəcədə ənənəvi protestant siyasi partiya) qadın namizədləri siyahılarına daxil etmək üçün öz prinsiplərində düzəliş etdi, amma dövlət vəzifəsinə seçkilərdə namizədliklərini irəli sürmələrinə icazə vermədi. 2010-cu ildə Ali Məhkəmə ərizəçi partiyanın nümayəndəli ümumi orqanlara seçkilərə namizəd irəli sürməkdə əqidələrini həyata keçirməsi üsulunu qəbuledilməz hesab etdi. Eyni zamanda, Məhkəmə dövlətin yürütdüyü mütənasiblik (balanslaşdırma) siyasətinin bu praktikaya qarşı heç bir tədbir görülməməsinə haqq qazandırdığına dair dövlətin mövqeyinin yanlış olduğunu bildirdi. Belə olan halda Parlamentin Aşağı Palatasının Daxili İşlər üzrə Daimi Komitəsi hər hansı tədbir görüb-görməyəcəyinə dair qərar verməzdən əvvəl Məhkəmədəki icraatın nəticəsini gözləməyi qərara aldı.

Məhkəmə ərizəni açıq-aydın əsassız olduğuna görə **qəbuledilməz** elan etmiş və konkret olaraq bildirmişdir ki, demokratiya Konvensiyada nəzərdə tutulan və ona uyğun olan yeganə siyasi modeldir. Üstəlik, üzv dövlətlərdə cinslərin bərabərliyi məsələsində irəliləyişlər kişinin rolunu birinci dərəcəli, qadının rolunu isə ikinci dərəcəli rol kimi qəbul edən baxışlara dövlətin dəstək verməsinə imkan vermir.

Heç bir qadının ərizəçi partiyaya namizəd olaraq seçilmək arzusunu ifadə etməməsi həlledici amil deyildi. Yalnız cinsi mənsubiyyət əsasında fundamental siyasi hüququn inkar edilməsinin ərizəçi partiyanın nizamnaməsində və ya hər hansı digər daxili sənədlərində açıq şəkildə qeyd edilib- edilməməsi o qədər də əhəmiyyət kəsb etmirdi. Vacib olan bu idi ki, həmin siyasət açıq şəkildə dəstəklənir və praktikada həyata keçirilirdi. Ərizəçi partiyanın mövqeyi onun əsasını təşkil edən və dərin kökləri olan dini əqidəyə əsaslanmasından asılı olmayaraq, qəbuledilməz idi.

## Ayrı-seçkiliyə ümumi qadağa

**Napotnik Rumıniyaya qarşı**

20 oktyabr 2020-ci il

Bu işdə ərizəçinin xaricdə, Rumıniyanın Lyublyanadakı səfirliyində diplomatik fəaliyyətinə ikinci hamiləliyini bildirməsindən dərhal sonra xitam verilmişdi. Ərizəçi iş yerində ayrı-seçkiliyə məruz qaldığını iddia edərək bildirmişdir ki, hadisələrin ardıcıllığı onun hamilə olduğu üçün diplomatik fəaliyyətinə xitam verildiyini açıq-aydın göstərirdi.

Məhkəmə Konvensiyanın **12 saylı Protokolunun 1-ci maddəsinin** (ayrı-seçkiliyə ümumi qadağa) **pozulmadığını** qərara alaraq müəyyən etmişdir ki, ərizəçi cinsi əlamətə görə fərqli rəftara məruz qalmışdır, lakin səlahiyyətli dövlət orqanları bu cür fərqli rəftarı səfirliyin konsulluq şöbəsinin fəaliyyətini təmin etmək və son nəticədə digər şəxslərin, yəni xaricdə yardıma ehtiyacı olan rumıniyalıların hüquqlarını qorumaq zərurəti ilə yetərincə əsaslandırmışlar.

İstənilən halda, ərizəçi heç bir ciddi uğursuzluqla üzləşməmişdi: o nə işdən çıxarılmış, nə də intizam tənbehinə məruz qalmışdı və faktiki olaraq vəzifədə iki dəfə irəli çəkilmişdi.

**Moraru və Marin Rumıniyaya qarşı**

20 dekabr 2022-ci il

Bu iş Rumıniyada qadın dövlət qulluqçuları üçün müəyyən edilmiş məcburi pensiyaya çıxma yaşının öncə kişilər üçün müəyyən edilmiş yaş həddindən aşağı olması və ayrı-seçkilik iddiası ilə əlaqədar idi. Hər iki ərizəçi qadın dövlət qulluqçusu idi.

Məhkəmə Konvensiyanın **12 saylı Protokolunun 1-ci maddəsinin** (ayrı-seçkiliyə ümumi qadağa) **pozulduğunu** qərara alaraq müəyyən etmişdir ki, ərizəçilərə qadınlar üçün müəyyən edilmiş pensiya yaşına çatdıqdan sonra əmək fəaliyyətini davam etdirmək və kişilər üçün müəyyən edilmiş pensiya yaşına çatana qədər işləmək imkanının verilməməsi obyektiv əsas və zərurət olmadan cinsi əlamətə görə ayrı-seçkilik təşkil edir.

## Mətnlər və sənədlər

Xüsusilə bax:

- Avropa Şurasının "Gender bərabərliyi" mövzusunda **veb-səhifəsi**;
- Ayrı-seçkilik əleyhinə Avropa qanunvericiliyinə dair Təlimat – 2018-ci il nəşr, Avropa İttifaqının Əsas Hüquqlar üzrə Agentliyi / Avropa Şurası, 2018-ci il

**Mətbuatla əlaqə:**

Tel.: +33 (0)3 90 21 42 08

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE